# QOY ƏDALƏT ZƏFƏR ÇALSIN!



"SƏS" qəzeti mənim üçün ən əziz qəzetdir

## Əlvida 2025, xoş gəlirsən, 2026



5

SƏS

№ 242 (7410)

Qəzet 1991-ci il yanvarın 11-dən çıxır

31 dekabr 2025-ci il.
Qiymәti 60 qəpik

# Azərbaycana uğur və nüfuz qazandıran LİDER!

Prezident İlham Əliyev: "Bu gün heç kimdən asılı olmayan Azərbaycan inamla, uğurla inkişaf edir"



2

# Bu gün Dünya Azərbaycanlılarının Həmrəyliyi Günüdür




3

## Dünyanı və bizi 2026-da nələr gözləyir?



7

## Bu gün Bakıda atəşfəşanlıq olacaq



8

## Milli Mətbuat 150: "Konstitusiya və Suverenlik İli" qələmi ilə döyüşənlərin gözü ilə...




6

## Yeni il kimin bayramıdır?



6

## Moskva Qafqaza qayıdır - Putin "Tramp yoluna" göz dikib...



4

# Azərbaycana uğur və nüfuz qazandıran LİDER!

*Prezident İlham Əliyev: "Bu gün heç kimdən asılı olmayan Azərbaycan inamla, uğurla inkişaf edir"*

Uğurlu inkişaf tarixini yaşayan Azərbaycanda həyata keçirilən kompleks islahatlar, geniş quruculuq işləri və yaradılan güclü iqtisadiyyat Azərbaycanın əsas inkişaf göstəriciləridir. Qarşıya qoyulan vəzifələrin uğurlu icrası nəticəsində abadlaşan bölgələrimiz, inkişaf edən ölkəmiz, dünyanın ən gözəl şəhərlərindən birinə çevrilən Bakı şəhəri və s. Azərbaycanın dinamik inkişafının göstəriciləridir. Ölkəmizdə aparılan müstəqil dövlət quruculuğu prosesində iqtisadi islahatların və inkişafın Azərbaycan modeli yaranıb. Bu model əsasında uğurla həyata keçirilən və yeni çalarlarla zənginləşdirilən sosial-iqtisadi siyasətin nəticələri Azərbaycanın həm də beynəlxalq imicinin və dövlət müstəqilliyinin daha da möhkəmləndirilməsinə gətirib çıxarıb. Prezident İlham Əliyevin uzaqgörən və praqmatik xarici siyasət strategiyasının qanunauyğun nəticəsi kimi, Azərbaycan beynəlxalq münasibətlər sisteminin nüfuz və güc dairəsində sürətlə irəliləyib. Belə ki, həyata keçirilən çoxtərəfli və balanslaşdırılmış xarici siyasət nəticəsində, Azərbaycan regionun ən güclü və nüfuzlu dövlətinə çevrilib. Təkcə onu demək kifayətdir ki, ölkəmizin iştirakı olmadan regionda heç bir strateji layihə reallaşdırılmayıb. Ölkə başçısı İlham Əliyev çıxışlarının birində qeyd etdiyi kimi, Azərbaycan dünya miqyasında böyük rəğbətə malik olan bir ölkədir.

### ”ÖLKƏDƏ HƏYATA KEÇİRİLƏN SİYASƏTİN MƏRKƏZİNDƏ, MƏHZ AZƏRBAYCAN VƏTƏNDAŞLARI, ONLARIN MARAQLARI DAYANIR”

Dövlət başçısının uğurlu sosial siyasəti respublika əhalisinin rifah halının yaxşılaşdırılması, sosial cəhətdən həssas əhali qruplarına dövlət qayğısının artırılması istiqamətində kompleks tədbirlərin ildən-ilə gücləmməsinə, geniş əhali kateqoriyalarını əhatə edən etibarlı sosial müdafiə sisteminin formalaşdırılmasına imkan yaratmış oldu. Dövlət başçısının dəfələrlə bəyan etdiyi kimi, ölkədə həyata keçirilən siyasətin mərkəzində, məhz Azərbaycan vətəndaşları, onların maraqları dayanır. Davamlı olaraq, islahatların həyata keçirilməsi vətəndaşların rifahının daha da yüksəldilməsinin, qayğıya ehtiyacı olan insanların sosial müdafiəsinin gücləndirilməsinin daim dövlətin diqqət mərkəzində olduğunun əyani göstəricisidir.

Əlbəttə, xalqımız görülən işləri, əldə olunan nailiyyətləri hər zaman dəyərləndirir və ən yüksək səviyyədə qiymətləndirir. Odur ki, xalqımız 2008-ci il oktyabrın 15-də, 2013-cü il oktyabrın 9-da və 2018-ci il aprelin 11-də keçirilən prezident seçkilərində də Ulu Öndər Heydər Əliyev siyasətinin layiqli davamçısına, əmin-amanlığa, tərəqqiyə və quruculuğa səs verdi.

Azərbaycan Prezidenti İlham Əliyev 2003-cü ildə ölkənin Prezidenti vəzifəsinin icrasına başladığı zaman çıxışında dediyi sözləri xatırlatmaq yerinə düşər: ”Milliyyətindən, dinindən, siyasi əqidəsindən asılı olmayaraq, hər bir Azərbaycan vətəndaşının Prezidenti olacağam və Azərbaycan xalqının etimadını doğruldacağam”. Həqiqətən də, belə oldu: Cənab İlham Əliyev hər bir Azərbaycan vətəndaşı üçün Prezident oldu və xalqın etimadını doğrultdu. Ötən 22 il aydın şəkildə göstərdi ki, İlham Əliyev Prezidentliyi dövründə ölkənin həyatının bütün sahələrində verdiyi vədlərin hamısını yerinə yetirmiş və sosial problemləri həll etmişdir. Əldə olunan möhtəşəm nailiyyətlər Azərbaycanı güclü və qüdrətli dövlətə çevirib. 7 fevral 2024-cü il tarixdə keçirilən prezident seçkilərində Prezident İlham Əliyev qələbə qazandı. Bu, xalqımızın inamının, etimadının təsdiqi olmaqla yanaşı, son illərdə görülən işlərə, həyata keçirilən təkmil islahatlara, Azərbaycanı zəfərdən-zəfərə aparan siyasətə verilən dəyər kimi xarakterizə edilir. Xalqımız hər zaman Heydər Əliyev siyasətini dəstəkləyir, bu yolun ölkəmizə bundan sonra da möhtəşəm uğurlar qazandıracağına əmindir.



Zəfər seçkilərində Prezident İlham Əliyevin, Birinci Xanım Mehriban Əliyevanın və ailə üzvlərinin Xankəndi şəhərində səs vermələri özündə mühüm məqamları ehtiva edirdi. Xatırladaq ki, Xankəndi şəhərində Azərbaycan Bayrağının ucaldılması, hərbi paradın, həmçinin futbol matçının keçirilməsi, daha sonra 2024-cü ildə 7 fevral tarixində dünyanın diqqətinin növbəti dəfə bu məkana yönəldilərək seçkilərin izlənilməsi tariximizin qürurverici hadisələridir. Dövlət başçısı İlham Əliyevin hər bir vədinin arxasında konkret əməli iş dayanır.

### AZƏRBAYCAN DAHA UĞURLU GƏLƏCƏYƏ DOĞRU

Əsas hədəflərdən biri 2026-cı ilə qədər 140 min keçmiş məcburi köçkünün dogma yurd-yuvasına qayıtmasıdır. Zəfər qazanmış Azərbaycanı daha uğurlu gələcək gözləyir. Qarabağ və Şərqi Zəngəzur yeni inkişaf dövrünü yaşayır. ”Dəmir Yumruğ”un yaratdığı yeni reallıqlarla hər kəs hesablaşmalıdır. Dövlət başçısının Qarabağ və Şərqi Zəngəzuru yaşıl enerji bölgələri elan edib və həmin ərazilərin sosial-iqtisadi inkişafı ilə bağlı nəzərdə tutulan layihələr icra olunmaqdadır. Vurğulamaq yerinə düşər ki, Azərbaycanın yaratdığı yeni reallıqlar regional sülh, sabitlik, təhlükəsizlik baxımından strateji əhəmiyyət kəsb edir. Qarabağ Zəfəri sayəsində regionda yaranmış yeni geosiyasi vəziyyət region dövlətlərlə yanaşı, Avrasiya məkanında sülh və inkişafa yol açır. Zəngəzur dəhlizinin yaradılması təkcə iqtisadi deyil, həm də böyük siyasi əhəmiyyət daşıyan hadisədir. Bu, türk dünyasını, Avropanı, eləcə də qonşu dövlətləri birləşdirəcək layihədir. Prezident İlham Əliyevin bildirdiyi kimi, bu gün heç kimdən asılı olmayan Azərbaycan inamla, uğurla inkişaf edir, öz xarici siyasətini də buna uyğun şəkildə aparır.

### ENERJİ TƏHLÜKƏSİZLİYİNDƏ ETİBARLI TƏRƏFDAŞ

Azərbaycan son illərdə yüksək inkişaf templərinə görə dünyanın lider dövlətləri sırasındadır. Azərbaycan Prezidenti İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən islahatlar Azərbaycanın dünyanın inkşaf etmiş ölkələri sırasında nüfuzu, çəkisi olan dövlətə çevirib. Müasir dövrdə Azərbaycan regionun, Avropanın və ümumilikdə, dünya ölkələrinin enerji təhlükəsizliyinin təmin edilməsində xüsusi əhəmiyyət kəsb edən bir ölkədir. Beynəlxalq təşkilatlar regiondakı bütün layihələrdə Bakının mövqeyini nəzərə alır və həyata keçirilən çoxtərəfli və balanslaşdırılmış xarici siyasət nəticəsində, regionda xüsusi çəkiyə sahibdir. Həyata keçirilən çoxtərəfli və balanslaşdırılmış xarici siyasət nəticəsində, Azərbaycan regionun ən güclü və nüfuzlu dövlətinə çevrilib. Bu gün dünya dövlətləri ilə qarşılıqlı etimad səviyyəsində qurulan diplomatik əlaqələr yüksək mərhələdədir. Mərkəzi və Şərqi Avropa ölkələri ilə müxtəlif sahələri əhatə edən ikitərəfli əməkdaşlıq Azərbaycanın xarici siyasətinin məntiqidir. Azərbaycan Prezidenti İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən prioritet sahələrin inkişafının təmin edilməsinə hesablanan islahatlar qlobal miqyasda meydana çıxan yeni çağırışları, cəmiyyətin sosial sifarişlərini əhatə edir. Ölkəmizin beynəlxalq mövqelərinin möhkəmlənməsi, bir çox ölkələrlə çox səmərəli, işgüzar, ikitərəfli münasibətlərin qurulması, eləcə də Azərbaycanın çoxtərəfli əməkdaşlıq formatının təşəbbüskarı qismində çıxışı dövlətimizin uğurla xarici siyasət yürütməsinin təzahürüdür. Avropa və Avropa İttifaqı ölkələri ilə münasibətlər, yeni sazişlərin imzalanması mövcud əlaqələrin daha da yüksəlməsinin təzahürüdür. Dünyanın aparıcı dövlətləri və təşkilatları Azərbaycanı Cənubi Qafqazın təhlükəsizlik qarantı adlandırmasında bir həqiqət var. Ölkəmizin iştirakı olmadan regionda heç bir strateji layihə reallaşdırılmır. Bakı-Tbilisi-Ceyhan əsas ixrac boru kəməri, Bakı-Tbilisi-Ərzurum qaz kəməri, Cənub Qaz Dəhlizi, Bakı-Tbilisi-Qars dəmir yolu xətti ilə Azərbaycan dünyanın əsas enerji-kommunikasiya mərkəzlərindən birinə çevirildi. Yaradılan logistika imkanları dünya iqtisadiyyatı üçün ölkəmizin önəmini daha da artırdı. Bölgədə, Avrasiya məkanında həyata keçirilən layihələr önəm daşıyır və ölkəmiz Avropanın enerji təhlükəsizliyinin təmin olunmasında mühüm rol oynayır. Neft-qaz sahəsində qazandığı uğurları davam etdirən ölkəmiz Trans-Anadolu və Trans-Adriatik qaz kəmərlərinin çəkilməsinə start verdi. Bununla da Avropanın enerji təhlükəsizliyinin təmin olunmasında mühüm rol oynayan Azərbaycan Cənub Qaz Dəhlizi layihəsinin aparıcı qüvvəsi kimi çıxış etməyə başladı. Bir sözlə, ölkəmiz Avropanın enerji təhlükəsizliyinin təmin edilməsində etibarlı tərəfdaş, mühüm tranzit qovşağı kimi beynəlxalq aləmdə tanınır.

### AZƏRBAYCANIN DİPLOMATİK UĞURU

Azərbaycan regionun lider dövləti kimi bölgədə əsas söz sahibinə çevrildi. Ölkəmiz daha da yüksələn beynəlxalq nüfuzu, proseslərə təsir imkanları ilə qlobal təşkilatlardakı fəaliyyətini daha da genişləndirdi. Qlobal miqyaslı bir çox məsələlərdə təşəbbüsü öz üzərinə götürdü. Azərbaycan dövlətinin son onilliklərdə BMT, Qoşulmama Hərəkatı, Türk Dövlətləri Təşkilatı və digər beynəlxalq qurumlar çərçivəsindəki uğurlu fəaliyyəti və digər institutlarla güclənən tərəfdaşlıqları, müxtəlif dünya dövlətləri ilə qurduğu ikitərəfli faydalı əlaqələr Prezident İlham Əliyevin həyata keçirdiyi siyasətin təntənəsidir.

Ölkəmizin BMT Təhlükəsizlik Şurasının qeyri-daimi üzvlüyünə qəbul olunması onun dünya miqyasında artan nüfuzundan və uğurlu xarici siyasətindən xəbər vermiş oldu. Dünyanın 155 ölkəsi Azərbaycana səs verdi. Əlbəttə, xalqımız görülən işləri, əldə olunan nailiyyətləri hər zaman dəyərləndirir və ən yüksək səviyyədə qiymətləndirir.

Azərbaycanın növbəti diplomatik uğuru - D-8 təşkilatına üzvlük ölkəmizin müstəqillik tarixində beynəlxalq diplomatik uğurlar sırasına daxil olan növbəti əlamətdar hadisə kimi yadda qalıb. Misirin paytaxtı Qahirə şəhərində İnkişaf etməkdə olan səkkiz ölkənin İqtisadi Əməkdaşlıq Təşkilatının (D-8) XI Sammiti zamanı Azərbaycan Respublikası yekdilliklə D-8 təşkilatının üzvü seçilib. Bu, D-8 yarandığı gündən təşkilatın sıralarının ilk genişlənməsi kimi əlamətdardır. Üç qitəni əhatə edən, 4 trilyon ABŞ dollardan artıq ÜDM-ə malik, 130 milyard ticarət dövriyyəsi həyata keçirən, üzvlərinin əhalisinin sayının ümumilikdə dünya müsəlmanlarının 60%-ni təşkil edən (ümumi əhali 1,2 milliardan artıqdır) və böyük iqtisadi potensiala malik ”İslam Səkkizliyi” adlanan D-8-ə ölkəmizin üzvlüyü Azərbaycanın beynəlxalq aləmdə artan nüfuzunun və ölkəmizə olan etimadın bariz nümunəsidir. Bu, Prezident İlham Əliyevin qətiyyətli və uğurlu xarici siyasətinin məntiqi nəticəsidir. Müasir Azərbaycan Respublikasının memarı və qurucusu olan Ümummilli Lider Heydər Əliyev tərəfindən əsası qoyulmuş xarici siyasət strategiyası bu gün möhtərəm Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilir. Əminliklə deyə bilərik ki, Ulu Öndərin hazırladığı mükəmməl xarici siyasət strategiyası Azərbaycanı bütün regional məsələlərdə söz sahibi olan müstəqil dövlətə çevirdi. Ümummilli Liderin siyasi kursunu layiqincə davam etdirən dövlət başçımız İlham Əliyevin uğurlu diplomatik fəaliyyəti nəticəsində Azərbaycanın dünya birliyindəki nüfuzu daha da artdı. Bu gün regiondakı hər hansı bir strateji əhəmiyyətli layihə Azərbaycanın rəyi olmadan gerçəkləşə bilməz.

Prezident İlham Əliyev Azərbaycan dövlətinin inkişafında mühüm rol oynayan, həm qurucu, həm də islahatçı Liderdir. O, hadisələrin gedişatını dəyişməyə qadir, dövlətçilik fəaliyyətində milli maraqları ən yüksək məqsəd kimi qəbul edən və bütün gücünü bu məqsədə həsr edən dövlət başçısıdır. Prezident İlham Əliyev xalqının birmənalı şəkildə dəstəklədiyi və etimad göstərdiyi Lider olaraq Azərbaycanı yeni zirvələrə daşıyan strateji addımlar atır.

**Z.BAYRAMOVA**

# Bu gün Dünya Azərbaycanlılarının Həmrəyliyi Günüdür

***Zəngin tarixə malik olan Azərbaycan xalqının dirçəlişini, tərəqqisini və milli birliyini əks etdirən, müstəqil dövlətçilik uğrunda müqəddəs və məsuliyyətli mübarizə səfərbər edən Dünya azərbaycanlılarının Həmrəylik Günü hər bir azərbaycanlı üçün qürur günüdür.***




Bu gün 31 Dekabr Dünya Azərbaycanlılarının Həmrəyliyi Günüdür. 1991-ci il dekabrın 16-da Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Ulu Öndər Heydər Əliyevin Sədrliyi ilə keçən iclasında 31 dekabrın dünya azərbaycanlılarının həmrəylik bayramı kimi qeyd olunması barədə qərar qəbul edilib. Ali Məclis bununla bağlı qanunvericilik aktının qəbul olunması üçün ölkə parlamentinə - Ali Sovetə müraciət ünvanlayıb. Dekabrın 25-də Azərbaycan Respublikası Ali Sovetinin Milli Şurası müraciəti nəzərə alaraq, dekabrın 31-nin Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü elan olunması barədə qanun qəbul edib.

2001-ci il noyabrın 9-10-da Bakıda Dünya Azərbaycanlılarının I Qurultayı keçirilib. Qurultay soydaşlarımızın milli mənlik şüurunun güclənməsinə, müxtəlif ölkələrdə azərbaycanlı icmalarının mütəşəkkilliyinin və fəallığının artmasına təsir göstərib. Bu, ölkənin ictimai-siyasi həyatında yeni bir hərəkat və dövlət siyasətinin yeni bir istiqaməti idi. Həmin qurultayda Ulu Öndərin böyük iftixarla söylədiyi "Mən həmişə fəxr etmişəm, bu gün də fəxr edirəm ki, mən azərbaycanlıyam!" kəlamı isə dillər əzbərinə çevrilib. Qurultaydan sonra Ümummilli Lider Heydər Əliyevin 2002-ci il 5 iyul tarixli Fərmanı ilə xaricdəki soydaşlarımızla əlaqələrin genişləndirilməsi və inkişaf etdirilməsi məqsədilə Xarici Ölkələrdə Yaşayan Azərbaycanlılarla İş üzrə Dövlət Komitəsinin (hazırkı Diasporla İş üzrə Dövlət Komitəsi) yaradılması, həmin il dekabrın 27-də isə soydaşlarımızla bağlı dövlət siyasəti haqqında Qanunun qəbul edilməsi dünya azərbaycanlılarının milli birliyi və təşkilatlanması prosesini daha da gücləndirib. Dünya azərbaycanlılarının milli birliyinin ideoloqu, təbliğatçısı və təşkilatçısı olan Ulu Öndərimiz xarici dövlətlərə səfərləri zamanı proqramının zənginliyinə, iş gününün gərginliyinə baxmayaraq, həmin ölkələrdə yaşayan, fəaliyyət göstərən həmvətənlərimizlə görüşlərə də mütləq vaxt ayırır, onların problem və qayğıları ilə yaxından maraqlanır, daha sıx təşkilatlanmaları üçün dəyərli tövsiyələr verirdi.

Ümummilli Lider Heydər Əliyevin təşəbbüsü ilə 34 il öncə başlanmış mənəvi bütövləşmə prosesi xalqımızın milli mənlik şüuruna və tarixi köklərə bağlılığından güc almışdır. Ulu Öndər milli birlik ideologiyasının möhkəm əsaslarını yaratmış, azərbaycanlıların həmrəyliyinə strateji əhəmiyyət vermiş və Azərbaycançılıq məfkurəsini dövlət siyasətinin önəmli bir amilinə çevirmişdir.

Ötən 22 ildə həmin kurs Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev tərəfindən ardıcıl davam etdirilmişdir. Dünya azərbaycanlıları ilə əlaqələrin möhkəmləndirilməsinə, diaspor təşkilatlarının imkanlarının genişləndirilməsinə və beynəlxalq aləmdə rolunun artırılmasına, harada yaşamasından asılı olmayaraq, soydaşlarımızın hüquq və mənafelərinin, təhlükəsizliyinin, milli kimliyinin qorunmasına, onların inkişafına, Azərbaycan dilini, ənənələrini və mədəniyyətini qoruyub saxlamasına, xalqımızın birlik və həmrəyliyinin güclənməsinə xidmət edir.

Yorulmaz fəaliyyəti ilə Dahi Öndər Heydər Əliyev siyasi fəlsəfəsinə, Onun liderlik məktəbinə söykənən Prezident İlham Əliyev bu sahədəki xidmətlərini uğurla davam etdirir. Dövlətimizin başçısının "Dünya azərbaycanlılarının II qurultayının keçirilməsi haqqında" 2006-cı il 8 fevral tarixli Sərəncamına uyğun olaraq, həmin il martın 16-da Bakıda keçirilən növbəti mötəbər toplantı xaricdə yaşayan azərbaycanlıların diaspordan lobbiyə çevrilməsi istiqamətində yeni addım olub, ölkəmizlə bağlı həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması işində əhəmiyyətli rol oynayıb.

2007-ci il martın 9-da Bakıda keçirilən Azərbaycan və Türk diaspor təşkilatları rəhbərlərinin birinci forumu isə bütün türkdilli xalqların həyatında mühüm hadisəyə çevrilib, Azərbaycan Prezidenti İlham Əliyevin türk dünyasının birliyinə verdiyi əhəmiyyətin parlaq təzahürü kimi tarixə düşüb.

Diasporumuzun təşkilatlanması prosesi bu gün daha sürətlə gedir. Dünya Azərbaycanlılarının I qurultayında yaradılmış Əlaqələndirmə Şurasının 2008-ci il dekabrın 18-də Bakıda keçirilmiş iclası, toplantıda "Dünya Azərbaycanlılarının Xartiyası"nın qəbulu birlik və mütəşəkkilliyinin artması, tarixi Vətənlə əlaqələrinin möhkəmlənməsi, diaspor potensialının möhkəm amilə çevrilməsini göstərməklə yanaşı, müstəqil Azərbaycanın bütün dünya azərbaycanlıları üçün cazibə mərkəzi olduğunu da bir daha təsdiqləyib. Həmrəylik günü milli birlik, Azərbaycana məhəbbət, milli mənəvi dəyərlərimizə hörmət, Vətənə bağlılıq hisslərini özündə təcəssüm etdirir. Bu gün ölkəmiz inkişaf etmiş və dünya ölkələri arasında böyük nüfuz qazanmış bir dövlətə çevrilmişdir.

Dövlətimizin diaspor siyasəti, həmvətənlərimizin birlik və həmrəyliyinin möhkəmləndirilməsi, onların daha mütəşəkkil formada təşkilatlanması prosesi özünün yeni mərhələsinə qədəm qoyub. Artıq dünya azərbaycanlıları yaşadıqları ölkələrin sosial-iqtisadi, ictimai-siyasi və mədəni həyatında daha fəal rol oynayır, respublikamızla qarşılıqlı əlaqələrin genişlənməsinə böyük töhfə verir, Azərbaycan həqiqətlərinin dünya ictimaiyyətinə çatdırılmasında, zəngin mədəni irsimizin təbliğində, təcavüzkar erməni dairələrinin ideoloji təxribatlarının qarşısının alınmasında qətiyyət nümayiş etdirirlər.

## 34 İL ÖNCƏ BAŞLANMIŞ MƏNƏVİ BÜTÖVLƏŞMƏ

Bu gün 31 Dekabr Dünya Azərbaycanlılarının Həmrəyliyi Günüdür. 1991-ci il dekabrın 16-da Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Ulu Öndər Heydər Əliyevin Sədrliyi ilə keçən iclasında 31 dekabrın dünya azərbaycanlılarının həmrəylik bayramı kimi qeyd olunması barədə qərar qəbul edilib. Ali Məclis bununla bağlı qanunvericilik aktının qəbul olunması üçün ölkə parlamentinə - Ali Sovetə müraciət ünvanlayıb. Dekabrın 25-də Azərbaycan Respublikası Ali Sovetinin Milli Şurası müraciəti nəzərə alaraq, dekabrın 31-nin Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü elan olunması barədə qanun qəbul edib.

2001-ci il noyabrın 9-10-da Bakıda Dünya Azərbaycanlılarının I Qurultayı keçirilib. Qurultay soydaşlarımızın milli mənlik şüurunun güclənməsinə, müxtəlif ölkələrdə azərbaycanlı icmalarının mütəşəkkilliyinin və fəallığının artmasına təsir göstərib. Bu, ölkənin ictimai-siyasi həyatında yeni bir hərəkat və dövlət siyasətinin yeni bir istiqaməti idi. Həmin qurultayda Ulu Öndərin böyük iftixarla söylədiyi "Mən həmişə fəxr etmişəm, bu gün də fəxr edirəm ki, mən azərbaycanlıyam!" kəlamı isə dillər əzbərinə çevrilib. Qurultaydan sonra Ümummilli Lider Heydər Əliyevin 2002-ci il 5 iyul tarixli Fərmanı ilə xaricdəki soydaşlarımızla əlaqələrin genişləndirilməsi və inkişaf etdirilməsi məqsədilə Xarici Ölkələrdə Yaşayan Azərbaycanlılarla İş üzrə Dövlət Komitəsinin (hazırkı Diasporla İş üzrə Dövlət Komitəsi) yaradılması, həmin il dekabrın 27-də isə soydaşlarımızla bağlı dövlət siyasəti haqqında Qanunun qəbul edilməsi dünya azərbaycanlılarının milli birliyi və təşkilatlanması prosesini daha da gücləndirib. Dünya azərbaycanlılarının milli birliyinin ideoloqu, təbliğatçısı və təşkilatçısı olan Ulu Öndərimiz xarici dövlətlərə səfərləri zamanı proqramının zənginliyinə, iş gününün gərginliyinə baxmayaraq, həmin ölkələrdə yaşayan, fəaliyyət göstərən həmvətənlərimizlə görüşlərə də mütləq vaxt ayırır, onların problem və qayğıları ilə yaxından maraqlanır, daha sıx təşkilatlanmaları üçün dəyərli tövsiyələr verirdi. Ümummilli Lider Heydər Əliyevin təşəbbüsü ilə 34 il öncə başlanmış mənəvi bütövləşmə prosesi xalqımızın milli mənlik şüuruna və tarixi köklərə bağlılığından güc almışdır. Ulu Öndər milli birlik ideologiyasının möhkəm əsaslarını yaratmış, azərbaycanlıların həmrəyliyinə strateji əhəmiyyət vermiş və Azərbaycançılıq məfkurəsini dövlət siyasətinin önəmli bir amilinə çevirmişdir.

Ötən 22 ildə həmin kurs Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev tərəfindən ardıcıl davam etdirilmişdir. Dünya azərbaycanlıları ilə əlaqələrin möhkəmləndirilməsinə, diaspor təşkilatlarının imkanlarının genişləndirilməsinə və beynəlxalq aləmdə rolunun artırılmasına, harada yaşamasından asılı olmayaraq, soydaşlarımızın hüquq və mənafelərinin, təhlükəsizliyinin, milli kimliyinin qorunmasına, onların inkişafına, Azərbaycan dilini, ənənələrini və mədəniyyətini qoruyub saxlamasına, dəfələrlə soyqırımına və deportasiyaya məruz qalmış Qərbi azərbaycanlıların hüquqlarının bərpasına və zorla tərk etməyə məcbur olduqları ata-baba torpaqlarına dinc qayıdışına dəstək verilməsi xalqımızın birlik və həmrəyliyinin güclənməsinə xidmət edir.

Yorulmaz fəaliyyəti ilə Dahi Öndər Heydər Əliyev siyasi fəlsəfəsinə, Onun liderlik məktəbinə söykənən Prezident İlham Əliyev bu sahədəki xidmətlərini uğurla davam etdirir. Dövlətimizin başçısının "Dünya azərbaycanlılarının II qurultayının keçirilməsi haqqında" 2006-cı il 8 fevral tarixli Sərəncamına uyğun olaraq, həmin il martın 16-da Bakıda keçirilən növbəti mötəbər toplantı xaricdə yaşayan azərbaycanlıların diaspordan lobbiyə çevrilməsi istiqamətində yeni addım olub, ölkəmizlə bağlı həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması işində əhəmiyyətli rol oynayıb.

2007-ci il martın 9-da Bakıda keçirilən Azərbaycan və Türk diaspor təşkilatları rəhbərlərinin birinci forumu isə bütün türkdilli xalqların həyatında mühüm hadisəyə çevrilib, Azərbaycan Prezidenti İlham Əliyevin türk dünyasının birliyinə verdiyi əhəmiyyətin parlaq təzahürü kimi tarixə düşüb.

## "BÜTÜN AZƏRBAYCANLILAR, ONLARIN BÖYÜK ƏKSƏRİYYƏTİ VƏTƏNPƏRVƏRDİRLƏR"

2016-cı il 3 iyun tarixində keçirilən Dünya Azərbaycanlılarının IV Qurultayı da ölkəmizin tarixinə iftixar gətirəcək hadisələrdən biri kimi yazıldı. Çünki dünya azərbaycanlılarını təmsil edən əsas diaspor təşkilatlarının nümayəndələri, rəhbərləri Azərbaycana - doğma Vətənə gəlmişdilər. Bu birliyin və həmrəyliyin nümayişi idi. Dünya Azərbaycanlılarının IV Qurultayının rəsmi açılışında Azərbaycan Prezidenti İlham Əliyev çıxışında "Mən çox istəyirəm ki, xaricdə fəaliyyət göstərən diaspor təşkilatları da bir nöqtəyə vursunlar və birləşsinlər. Belə olan halda, onların gücü də, ictimaiyyət tərəfindən onlara qarşı hörmət də artacaq", - deyərək, birliyin əsas məsələlərdən olduğunu diqqətə çatdırmışdır: "Xüsusilə, nəzərə alsaq ki, bütün azərbaycanlılar, onların böyük əksəriyyəti vətənpərvərdirlər, Vətənə bağlıdırlar. Onlar istəyirlər ki, Azərbaycan dövləti daha da güclənsin, daha da qüdrətli dövlətə çevrilsin".

Azərbaycan Prezidenti İlham Əliyev müstəqilliyimizin ilk illərində, zəif olmağımızdan istifadə edən erməni diasporunun uzun illərdir ki, dünyada bizə qarşı çox çirkin kampaniya apardığını və bu kampaniyanın tərkib hissəsinin Azərbaycanı antidemokratik, Ermənistanı isə yazıq, "blokada" şəraitində olan ölkə kimi təqdim etmək məqsədi daşıdığını bildirmişdi: "Azərbaycanda bu illər ərzində diaspor təşkilatları ilə qurulan iş yeni bir mərhələyə gəlib çatıb. Dünyanın müxtəlif yerlərində tədbirlər keçirilir, dünya ictimaiyyəti Azərbaycan reallıqları ilə daha geniş şəkildə tanış ola bilirlər".

## DÜNYA AZƏRBAYCANLILARININ ZƏFƏR QURULTAYI

Diasporumuzun gördüyü işlər yaşadıqları ölkələrin siyasi həyatına təsir edəcək səviyyəyə yüksəlir. Prezident İlham Əliyevin bu sahədə ardıcıl və qətiyyətli, məqsədyönlü və prinsipial siyasət aparması, deməyə əsas verir ki, Azərbaycan diasporu güclənib, doğma Vətənin taleyüklü problemlərinin həllində yaxından iştirak edir. Bu gün artıq Azərbaycan tarixi günlərlə zəngin olan dövrünü yaşayır. Azərbaycanın mədəniyyət paytaxtı Şuşa şəhərində keçirilən Dünya Azərbaycanlılarının V Qurultayı - Zəfər Qurultayı ölkəmizin ictimai-siyasi həyatında mühüm hadisə olmaqla yanaşı, dünya azərbaycanlılarının fəaliyyət dövründə yeni mərhələnin başlanğıcı kimi tarixiləşdi. Dünyanın 65 ölkəsindən 400 nəfərə yaxın diaspor nümayəndəsinin iştirakı ilə keçirilən Qurultayda Azərbaycan Prezidenti İlham Əliyevin çıxışı zamanı verdiyi mesajlar xaricdəki azərbaycanlıların növbəti beş ildə fəaliyyəti üçün yol xəritəsi müəyyənləşdirməklə yanaşı, Azərbaycan diasporu qarşısında yeni vəzifələr də qoymuş oldu. Qələbə qazanmış Azərbaycan xalqının Zəfər Qurultayı 2020-ci il Vətən müharibəsində Azərbaycan xalqının böyük Qələbəsindən sonra keçirilən ilk qurultay idi. Prezident İlham Əliyev Dünya Azərbaycanlılarının V Qurultayında çıxışı zamanı "Şuşada keçirilən Qurultayın çox böyük tarixi mənası var", - deyə bildirib ki, bu gün Azərbaycan yeni dövrə qədəm qoyub: "Biz otuz il işğal edilmiş ölkə kimi yaşamışıq. Bu, bizim üçün çox ağır idi - mənim üçün Prezident kimi, hər bir vətəndaş üçün, sizin üçün - xaricdə yaşayan azərbaycanlılar üçün". Bu gün vəziyyətin tam fərqli olduğunu vurğulayan Azərbaycan Prezidenti diqqətə çatdırıb ki, bu gün alnımız açıqdır, bu gün üzümüz gülür, bu gün başımız dikdir və həmişə belə olacaq: "Mən tam əminəm ki, bundan sonra Azərbaycan xalqı müzəffər xalq kimi əbədi yaşayacaq, Azərbaycan dövləti qalib dövlət kimi əbədi yaşayacaq. Biz öz torpağımızdayıq. Bu torpaqda möhkəm dayanmışıq və heç kim heç vaxt bu torpaqlardan bizi tərpədə bilməz". Bu gün ölkəmiz inkişaf etmiş və dünya ölkələri arasında böyük nüfuz qazanmış bir dövlətə çevrilib.

***Zümrüd ƏLƏDDİNQIZI***

# YAP 2026-cı ilə yeni uğurları ilə qədəm qoyur



Haqlı və əsaslı olaraq Ulu Öndərimiz Heydər Əliyev tarixi çıxışlarının birində demişdir: "Dövlət müstəqilliyini qurmaq, onu əldə etməkdən çətindir". Bu müdrik kəlam təsdiq edir ki, həqiqətən də dövlət müstəqilliyinin qazanılması qədər onu əldə saxlamaq, qurmaq və inkişaf etdirmək daha çətindir. Bir növ əldə olunan müstəqilliyi yaşatmaq üçün böyük zəhmətə, fədakarlığa, xalq-hakimiyyət birliyinə ehtiyac var. 1918-ci ildə qurulmuş Azərbaycan Xalq Cümhuriyyəti uzunömürlü ola bilmədi. Çünki daxili konfliktlər, idarəetmə bacarığının aşağı olması və nəhayət, lider probleminin mövcudluğu Cümhuriyyətin cəmi 23 ay yaşamasına imkan verdi. 71 il sonra sovetlər birliyinin dağılması ərəfəsində Azərbaycan xalqı yenidən müstəqil dövlət qurmaq şansı qazandı. 1991-ci il oktyabr ayının 18-də Azərbaycan Respublikası Ali Sovetinin sessiyasında "Azərbaycanın dövlət müstəqilliyi haqqında Konstitusiya Akt" qəbul olundu. Bu qərarın qəbul edilməsi ilə dünya xalqları arasında bayrağımız dalğalandı, himnimiz səsləndi, milli varlığımız nümayiş etdirildi. Təəssüflər olsun ki, dövlət müstəqilliyinin ilk illərində ölkəyə rəhbərlik edən AXC-Müsavat cütlüyünün səriştəsizliyi, idarəçilik qabiliyyətinin yoxluğu Azərbaycanı çətin, ağır problemlərlə üz -üzə qoymuşdu. Vətəndaş qarşıdurması qaçılmaz görünürdü, hər yerdə xaos və anarxiya hökm sürürdü, iqtisadiyyat dağılmış, beynəlxalq əlaqələr sıradan çıxmışdı. Daxili böhranlı vəziyyətin son dərəcə kritik xarakter almasından istifadə edən erməni hərbi-terrorçu dəstələri xarici məkrli dairələrin hərbi, siyasi, maliyyə dəstəyinə arxalanaraq torpaqlarımızı işğal edirdi. Xalq sarsılmı, sabaha ümidsiz vəziyyətdə idi. Belə bir məqamda xalqın böyük əksəriyyətinin istəyinin ifadəsi kimi 91 nəfər ziyalının 1992-ci il oktyabrın 16-da "Səs" qəzeti vasitəsi ilə Ulu Öndər Heydər Əliyevə "Azərbaycan Sizin sözünüzü gözləyir" müraciəti ünvanlandı. Ziyalıların müraciətində qeyd olunmuşdur ki, indiki vəziyyətdə bu çətin, məsuliyyətli işi respublikada öz öhdəsinə götürməyə qadir yeganə şəxs Sizsiniz: "Uzun illər əldə etdiyiniz dövlət quruculuğu təcrübəsinə əsaslanaraq Siz qısa müddətdə Azərbaycanda geniş xalq kütləsini əhatə eləyəcək çox güclü, nüfuzlu və işlək bir partiya yaratmağa qadirsiniz".

## Yeni Azərbaycan Partiyasının yaradılması obyektiv zərurət idi

Ulu Öndər Heydər Əliyevin 1992-ci il oktyabrın 24-də "Səs" qəzeti vasitəsi ilə ziyalıların müraciətinə "Yeni, müstəqil Azərbaycan uğrunda" cavabı xalqa böyük ümidlər verdi: "Güman edirəm ki, müstəqil Azərbaycan dövlətinin gələcək həyatının və fəaliyyətinin əsasını təşkil edən demokratiya və siyasi plüralizm şəraitində Sizin müraciətinizdə göstərilən Yeni Azərbaycan Partiyasının yaradılması obyektiv zərurətdən doğur. Belə partiya Azərbaycanın siyasi-ictimai həyatında fəal iştirak edərək yeni, müstəqil Azərbaycan dövlətinin möhkəmləndirilməsində və inkişafında tarixi rol oynaya bilər".

Beləliklə, 1992-ci il noyabrın 21-də Naxçıvanda keçirilən təsis konfransında Yeni Azərbaycan Partiyası təsis edildi və Ulu Öndər Heydər Əliyev partiyanın Sədri seçildi. YAP-ın yaranması ilə cəmiyyətdə böyük fəallıq yarandı və hər kəs bu partiyanın sıralarında cəmiyyətin inkişafına töhfələr verməyə çalışdı. Bu baxımdan qısa müddətdə YAP-ın sıralarına on minlərlə insan qoşuldu. Ulu Öndər Heydər Əliyev deyirdi: "Yeni Azərbaycan Partiyası Azərbaycanda gedən ictimai-siyasi proseslərin içərisindən çıxan zərurətdir... Yeni Azərbaycan Partiyasının fərqi ondan ibarətdir ki, bu partiya onu yaratmaq, siyasi fəaliyyətlə məşğul olmaq istəyən adamların istəkləri ilə, bir təşkilati mərkəz olmadan... ağır şəraitdə, böyük təqiblər şəraitində yaranmış bir partiyadır".

Ulu Öndər Heydər Əliyevin nüfuzu, Azərbaycan xalqının Ona göstərdiyi yüksək etimad Yeni Azərbaycan Partiyasının qısa müddət ərzində təşkilatlanmasına, ölkənin bütün regionlarında özəklərini yaratmasına və 1993-cü ildə hakimiyyətə gəlməsinə şərait yaratdı. Ulu Öndər Heydər Əliyev 1993-cü il iyunun 9-da Bakıya qayıtdı və Azərbaycanı gözləyən dəhşətli hadisələrdən, faciələrdən xilas etdi. Ulu Öndərimiz Heydər Əliyev iyunun 15-də Azərbaycan Respublikası Ali Sovetinin sədri seçildi, iyunun 24-də isə Milli Məclisin qərarı ilə Azərbaycan Respublikası Prezidentinin səlahiyyətlərini həyata keçirməyə başladı.

## 550 nümayəndənin işığından nur alan 850 min nəfər

1992-ci il noyabrın 21-də Naxçıvanda 550 nümayəndənin iştirakı ilə yaradılan Yeni Azərbaycan Partiyası bu gün sıralarında on minlərlə vətənsevəri, Ulu Öndər Heydər Əliyev ideyalarına bağlı əqidə dostunu birləşdirir. Hazırda 850 mindən çox üzvü sıralarında birləşdirən YAP bununla Cənubi Qafqazın ən böyük partiyası olduğunu təsdiqləyir. Ölkə Prezidenti, YAP-ın Sədri İlham Əliyev haqlı olaraq demişdir: "Bu gün Azərbaycanda bizim partiyamıza rəqib ola biləcək hər hansı bir siyasi qüvvə mövcud deyil. Yeni Azərbaycan Partiyası, sözün əsl mənasında, ümumxalq partiyasına çevrilibdir. Cəmiyyətimizin bütün təbəqələri partiyamızda birləşib. Buna baxmayaraq, biz həmişə qabağa baxmalıyıq və əldə edilmiş uğurlarla kifayətlənməməliyik. Uğurlarımızın səbəblərindən biri də məhz ondan ibarətdir ki, əldə edilmiş uğurlar bizə əlavə stimul verir".

Ürəkaçan hal ondan ibarətdir ki, YAP-ın hər bir üzvü Dahi Öndər Heydər Əliyev ideyalarının, Onun layiqli siyasi varisi Prezident İlham Əliyevin həyata keçirdiyi siyasətin təbliğatçısıdır. Azərbaycanın hər uğurunda öz payı olan Yeni Azərbaycan Partiyasının ölkədə keçirilən bütün seçki proseslərindən uğurla çıxması da möhkəm təmələ əsaslanan siyasətə əsaslanır. Tarix uğurlara istinadən qeyd etmək olar ki, Yeni Azərbaycan Partiyasının 1993-cü ildən bu günə qədər ölkəmizdə keçirilən Prezident, parlament, bələdiyyə seçkilərində uğur qazanmasını şərtləndirən əsas səbəbləri, qurucusunun Dahi Öndər Heydər Əliyevin olması və əsas qoyulan siyasətin ölkə Prezidenti, Fateh Sərkərdə İlham Əliyev tərəfindən uğurla həyata keçirilməsidir. Ulu Öndər Heydər Əliyev tarixi çıxışlarının birində demişdir: "YAP Azərbaycanda gedən ictimai-siyasi proseslərin içərisindən çıxan zərurətdir. O, bir adamın istəyi ilə yaranan partiya deyildir. Azərbaycanda yaranan partiyaların bir çoxu ayrı-ayrı şəxslərin, siyasi fəaliyyətə başlayan adamların şəxsi təşəbbüsü ilə, onların ətrafında toplaşan adamların təşəbbüsü ilə yaranan partiyalardır. Ancaq Yeni Azərbaycan Partiyasının fərqi ondan ibarətdir ki, bu partiya onu yaratmaq istəyən, siyasi fəaliyyətlə məşğul olmaq istəyən adamların istəkləri ilə, bir təşkilati mərkəz olmadan, hərəsinin öz tərəfindən hərəkət etməsi nəticəsində, ağır şəraitdə, böyük təqiblər şəraitində yaranmış bir partiyadır".

## 2026-cı il partiyanın fəaliyyətində, qarşıya qoyulan məqsədlərə çatmasında, vəzifələrin icrasında uğurlu illərdən biri olacaq

Ulu Öndərimiz Heydər Əliyevin ən layiqli siyasi varisi, ölkə Prezidenti, Fateh Sərkərdə İlham Əliyev əsası qoyulan siyasəti uğurla davam etdirir. Ölkə Prezidenti İlham Əliyev YAP-ın rəhbərliyinə seçildikdən sonra partiyanın həyatında yeni dönüş yaranmışdır. Fateh Sərkərdə İlham Əliyevin 1999-cü ildə Yeni Azərbaycan Partiyası Sədrinin müavini, 2001-ci ildə Sədrin birinci müavini, 2005-ci ildə isə Sədr seçilməsindən sonra partiyanın fəaliyyətində yeni mərhələ başlanmışdır. Ulu Öndər Heydər Əliyev 2003-cü il oktyabrın 1-də Azərbaycan xalqına ünvanladığı tarixi müraciətdə "Sizi əmin edirəm ki, həm İlham Əliyev, həm də Yeni Azərbaycan Partiyası bundan sonra da xalqımızın ən layiqli övladlarını öz ətrafında sıx birləşdirərək Azərbaycan dövlətinin inkişafı və xalqımızın firavanlığı yolunda çox işlər görəcəklər", - deyə bildirmişdi.

Azərbaycan Prezidenti, YAP-ın Sədri İlham Əliyev Azərbaycanın sosial-iqtisadi inkişafında mühüm tədbirlər həyata keçirmiş, Fərman və Sərəncamlar imzalamışdır. Bunun nəticəsi olaraq ölkəmizdə hər bir vətəndaşın yaşayışında mühüm dəyişikliklər baş vermişdir. Prezident İlham Əliyev demişdir: "Ölkədə həm siyasi, həm də iqtisadi sahədə islahatlar cəsarətlə aparılır. Mən tam əminəm ki, siyasi və iqtisadi islahatlar, iqtisadi yüksəliş və demokratikləşmə prosesləri bir-birini tamamlamalıdır və paralel şəkildə həyata keçirilməlidir. Əks təqdirdə, iqtisadi durum yaxşılaşmasa, bizim iqtisadi planlarımız həyata keçməsə, təbii ki, Azərbaycanda tam şəkildə demokratik cəmiyyətin qurulmasından söhbət gedə bilməz". Prezident İlham Əliyev onu da bildirmişdir ki, hər hansı ölkənin inkişafı heç də təbii sərvətlərin zənginliyi ilə deyil, demokratikləşmə proseslərindən, qanunun aliliyinin qorunmasından, vətəndaş cəmiyyəti təsisatlarının inkişafından asılıdır. Bu gün Azərbaycanda Yeni Azərbaycan Partiyasına rəqib ola biləcək hər hansı bir siyasi qüvvə mövcud deyil. Yeni Azərbaycan Partiyası düzgün, əsaslı fəaliyyəti ilə dövlətimizin inkişafının, xalqın birliyinin daha da möhkəmlənməsinə, uğurlarının davamlı xarakter almasına mühüm töhfələr verir. Qazanılan uğurlar heç zaman dəyişməyəcək. Əvvəlki illərdə olduğu kimi, YAP 2025-ci ili də böyük uğurları, nailiyyətləri ilə başa vurur. Təbii ki, 2026-cı ildə partiyanın fəaliyyətində, qarşıya qoyulan məqsədlərə çatmasında, vəzifələrin icrasında uğurlu illərdən biri olacaq.

***İLHAM ƏLİYEV***

# Moskva Qafqaza qayıdır - Putin "Tramp yoluna" göz dikib...

### Mətləb Salahov: "Açıq görünür ki, hazırkı ABŞ Administrasiyası da Kremlin TRIPP layihəsində bu və digər şəkildə iştirakına qarşı deyil"



"Ukraynadakı hərbi itkilərə və bu üzdən ölkədə yaranmış iqtisadi böhrana baxmayaraq, Rusiya Cənubi Qafqazdakı iqtisadi və siyasi proseslərdə yenidən aktiv iştirakçı kimi geri qayıtmağa çalışır. Əlbəttdə, Moskva gözəl anlayır ki, gələn ildən başlayaraq bölgədə aktiv iqtisadi və ticari hərəkətlilik baş verəcək. Artıq Azərbaycan və Ermənistan arasında 30 ildən sonra ilk iqtisadi əlaqələr qurulub, Azərbaycan ərazisindən Ermənistana taxıl daşınması baş verib. Üstəlik rəsmi İrəvan da Bakıya bir sıra məhsulların ixracını gözdən keçirir. Ən əsası isə Vaşinqtondakı razılaşmaya uyğun olaraq 2026-cı ildə TRIPP layihəsinin işə salınması planlaşdırılır. Əlbəttdə, Moskvanın "qulağının dibində" belə iqtisadi canlanma fonunda Kreml bölgənin supergücü kimi baş verənlərdən qıraqda qala bilməz".Bu barədə SİA-ya açıqlamasında jurnalist-ekspert Mətləb Salahov bildirib. Onun fikrincə, Rusiya baş nazirinin müavini Aleksey Overçukun Rusiya-Azərbaycan-Ermənistan marşrutu üzrə digər yüklərin daşınması məsələsi aktiv şəkildə müzakirə olunduğu barədəki çıxışı qətiyyən təsadüfi deyil. M.Salahovun fikrincə, Nikol Paşinyanın Sankt Peterburqa son səfəri zamanı Vladimir Putinin erməni baş nazir ilə siyasi ritorikası da Rusiyanın Cənubi Qafqazdakı iqtisadi inteqrasiya prosesinə fəal qoşalacağına işarədir.

"Məsələn Ermənistan mediası yazır ki, ABŞ-ın vitse-prezidenti Ceyms Di Vens 2026-cı ilin fevral ayında Ermənistana səfər edəcək. Erməni jurnalistlərin yazdığına inansaq, məlum olur ki, bu səfər zamanı Meğridə TRIPP layihəsinin (Zəngəzur dəhlizi) təməlqoyma mərasimi olacaq. V.Putinin də Donald Trampla birgə siyasi hərəkətliliyini nəzərə alsaq, açıq görünür ki, hazırkı ABŞ Administrasiyası da Kremlin TRIPP layihəsində bu və digər şəkildə iştirakına qarşı deyil. Çox güman ki, Rusiya Cənubi Qafqaza növbəti dəfə qayıdır - bu dəfə iqtisadi iştirakçı libasında."

***Afət Tahirqızı***

# Əlvida 2025, xoş gəlirsən, 2026



***2025-ci ilin son günlərindəyik. Bir il də ömür kitabımızın bir vərəqini, beləcə, çevirdi, bir il də ötdü həyatımızdan, deyirik. Bəli, ötür, ötəcəkdir də, zaman adlı köhlən atı kim saxlaya bilər ki? O çapır, gün keçir ay olur, aylarsa illəri əvəzləyir. Fəsillər dəyişir... Bahar yay, payızsa qış olur. Necə də bənzəyir insan ömrünə. Bahar gənclik, yay orta yaş, payız qocalıq, qış da ahıllıq. Ötür zaman, insan elə ki bahardan yaya boylandı, oradan da payıza bir nəzər saldı, payızın füsunkar yarpaqtökümünü izlədi, deməli, bir il də yollanır öz arxivinə. Çünki yarpaq tökümü təbiətin yaşlanması, ahıl çağının çatması, bəyaz saçlarına sığal çəkərək "bir ili də başa vurdum", deməsidir. Şair demişkən:***

Ağacdan yarpaqlar endikcə bir-bir,
İl də arxasından atır yükünü.
Təqvimin kötüyü üstündə əsir,
Tək qalan son varaq - ilin son günü.

İlin tamamında ötən günlərə nəzər salan insan sanki onun qiymətini verir. "Bu il mənim üçün uğurlumu, uğursuzmu oldu",- deyə ya onu ittiham edir, ya da əzizləyir, kaşki heç bitməzdi, - deyir. Nədənsə, ilin son günlərində həmişə ötən illərlə bağlı xatırladığımız anlar olur. Bu xatirələr sanki ömür vərəqlərinə hopubmuş kimi zamanı çatanda yenilənir, o günləri xatırladır bir daha - qayğısız uşaqlıq illərini, qışda qarın yağmasını səbrsizliklə gözlədiyimiz günləri... Axşamdan qar yağdığını görərkən səhərədək sevincdən yata bilmədiyimiz günlər xatırlanır. Səhəri gün xizəkləri götürüb sürüşməyə getməyimiz, qartopu oynamağımız, bir-birimizi yerə yıxıb qarla islatmağımız, yorulmağın nə olduğunu bilmədiyimiz günlər keçir gözlər önündən. Məktəblərdə keçirilən yeni il şənlikləri, bu şənliklərə bir ay əvvəldən hazırlaşmağımız, şeirlər əzbərləməyimiz, səhnəciklər hazırlamağımız kimi şirin xatirələr ola bilərmi? Məktəbdə böyük, təbii şam ağacının bəzədilməsi, onun ətrafa yayılan özünəməxsus ətri elə bil o illərin qoxusunu hər an burnumuza gətirir.

Artıq o illərdən sonra sanki nə şam ağacları o ətri verir, nə yeni il şənlikləri o qədər gözəl, şirin olur. Həmin illərdən sonra qarın da ovaxtkı qədər yağdığını görə bilmədik. O vaxt-bu vaxt xizəklər bayıra çıxarılmadı ta, nə qar topu oynanıldı, nə islandıq, nə də üşüməyin nə olduğunu bir daha hiss etmədik. Onlar sadəcə xatirələrə hopdular, xatirələr adlı evlərə yerləşdilər və qapıları açılandan-açılana sadəcə xatırlananlar oldular.

İlin bu günləri ölkəmizin iqtisadi böhranla üzləşdiyi gənclik illərimizi də gözlər önünə gətirir. Sovet ittifaqının buxovundan gücbəla ilə azad olub, müstəqilliyimizi yenicə bərpa etdiyimiz həmin illər sosial-iqtisadi vəziyyətin könülaçan olmaması, ərzaq qıtlığı səbəbindən insanların sıxıntı içərisində yaşaması, ürəkləri istəyən kimi süfrələr aça bilməməsi, soyuq, bəzən qaranlıq evlərimiz heç vaxt unuda bilmədiyimiz günlərdir. Çünki yaxşı dərk edirdik ki, əsarət zəncirini öz əllərimiz ilə didib-dağıdıb, parça-parça edib ayaqlar altına atmışıq, müstəqil yaşamaq əzmi ilə mübarizəyə qalxmışıq. Tarixin heç bir dönəmində, dünyanın heç bir ölkəsində müstəqillik asan əldə olunmayıb. Bu yolda qanlar da axıdılıb, övlad, ər, sevgili həsrəti də yaşanıb, aclıq, səfalət də hökm sürüb. Lakin səbir, dözüm, iradə xoş günlərin, bəxtəvər illərin müjdəsi olub.

Gəncliyimizə tuş gələn müharibə, Qarabağımızın işğal olunması, 20 Yanvar, Xocalı kimi faciələr yaşamağımız illəri bir-birinin arxasınca kədər və qüssə ilə tarixin arxivinə atırdı. Hər ötən ildən bizə qalan qəlb ağrısı idi. Sanki ilin bütün fəsilləri qış idi. Soyuq, günəşsiz həyat başımızın üstünü kəsmişdi. Həmin illər nə illərin başa çatdığının, nə də yeni ilin həyatımıza daxil olduğunun fərqində belə deyildik.

Bax, beləcə, o illərə hamı birlikdə - eyni qayğılarla yekun vururdu, hər ötən il hamı üçün eyni təəssüratlarla yadda qalırdı. Yeni ilə könülsüz salam verib, əlini sıxırdıq - bəlkə, bu yeni il hər şey düzələr - deyə. Deməli, ümidlər sarsılmırdı. Qışın şaxtası, soyuğu bu ümidləri qamçılayıb yoxa çıxara, puç edə bilmirdi.

İllər ötür, bir-birinin yerini alır, biz isə torpaqlarımızın azad olunacağı günü gözləyir, həmin tarixdən bayramların, şənliklərin ömrümüzə qədəm qoyacağına icazə verəcəkmiş kimi o günlərin yaşanmasını gözləyirdik. İllərsə o zamanı gətirib çıxaracaqdı. Hər yola saldığımız köhnə ildə başımıza gələn müsibətləri xatırlayır, gələn yeni ildən tək istəyimiz torpaqlarımızın azad olunması olurdu. Çünki biz onlarsız tam deyildik. Qarabağ işğal altında olduğu halda, düşmənin əlində, ayaqları altında olduğu vaxt nə bayram, nə yeni il, nə şadyanalıq?..

Könlümüz açılmırdı, günahkar hesab edirdik özümüzü. Sanki xəstə övladımıza şəfa verə bilmirdik, onu müalicə etdirə, həkimə apara bilmirdik. Övladımız isə gözlərimiz önündə günü-gündən saralıb-solurdu. Bax, Qarabağ qara bəxti ilə gözlərimiz önündə bir övladımıza edə bilmədiklərimiz qədər çarəsiz dayanırdı. Bizsə ona baxır, gözümüzün yaşını ələyir, gücümüzün sadəcə buna çatmasına yanıb-yaxılırdıq.

Həqiqətən illər ömür kitabının vərəqləridir. Bu vərəqlərə nə talelər, nə qismətlər yazılır... Minlərlə soydaşımız ötən bir qərinəyədək zamanın ömür kitabının səhifələrinə yalnız göz yaşlarını hopdura bildi, hicranı, həsrəti yazdılar. Qərib qəbirlərini, həsrətində olduqları yurdlarının hicranını yazdılar. Onlar yurd həsrəti ilə qovrulub yanıb-yaxıldıqlarını o səhifələrə həkk etdilər. "Qoy qalsın bu səhifələrdə, qalsın ki, qonşu dediklərimizin başımıza gətirdikləri oyunları gələcək nəsillər də bu səhifələrdən oxusun, öyrənsin. Çünki keçmişini bilməyən gələcəyinin də qədrini bilə bilməz", - söylədilər.

İllərsə ötdükcə, bizləri torpaqlarımıza yaxınlaşdırırdı. Gənclik çağlarımızda ölkəmizdə şahidi olduğumuz iqtisadi böhran arxada qalırdı. Ölkəmiz gündən-günə inkişaf edir, müstəqil bir yolda müstəqil addımlarla irəliyə hərəkət edirdi. Bu inkişaf isə ordumuzun güclənməsi, ordumuzun güclənməsi isə torpaqlarımızın geri qaytarılacağı günü yaxınlaşdırırdı.

Dövlətimizin başçısının 2020-ci ilədək bütün bayramlarda xalqımıza müraciətlərini xatırlayırıq. Bu müraciətlər tək bayram münasibətilə xalqa təbrik deyildi, həm də onlara verilən böyük bir ümid idi. Ağrılı yaralarımızın sağalacağı günü səbirlə gözləməyə çağırış idi. Bu müraciətlər xalqın Liderinin onun arzularını bir gün reallaşdıracağına verdiyi söz idi.

2020-ci il... Zəfər, qələbə ilimiz, torpaqlarımızın işğaldan azad olunan ili. Minlərlə övladımızın şəhid, yüzlərlə övladımızın qazi olması hesabına qazandığımız qürur ilimiz. Sən demə 2019 bizim Qarabağsız qarşılanan son ilimiz imiş. 2019-cu il dövlətimizin başçısının 31 Dekabr Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü və Yeni il münasibətilə xalqımıza müraciətində işğal altında olan torpaqlarımızdan sonuncu dəfə bəhs etməsi ili idi. Qarşıdakı 2020-ci il Zəfəri ilə ömrümüzə-günümüzə günəşli günlər gətirdi. 2020 bizə şərəfimizi, ləyaqətimizi qaytardı. Hər dəfə Qarabağdan söhbət düşəndə aşağı dikdiyimiz başımızı yuxarı qaldırmağı bəxş etdi.

Ali Baş Komandan cənab İlham Əliyevin 17 il ərzində apardığı böyük siyasət nəticəsində 2020-ci ilin tarixinə Zəfər sözünü yaza bildik. Ulu Öndərimiz Heydər Əliyevin torpaqlarımızın işğaldan azad olunması ilə bağlı vəsiyyətini reallaşdıra bildik. Xalqımız başını dik tutdu. Birliyimiz, həmrəyliyimiz, böyük sərkərdəmizin arxasında möhkəm dayanmağımızla qələbəni qazana bildik. Biz Qarabağımızı xilas etdik. Onu anası Azərbaycana qovuşdura bildik. Qarabağın baş tacı, döyünən ürəyi Şuşanı azad etdik. Şuşa qəhrəman, igid övladlarımızın əlləri, dağa-daşa sürtünən sinələri, böyük əzmləri ilə geri alındı. Böyük bir hərbi əməliyyatla Şuşa tarixin səhifələrinə Azərbaycan ordusunun möhtəşəmliyini yazdı.

Qarabağda, budur, beş ildir, başlanan quruculuq, bərpa işləri hər gün həyatımıza bayram, şadyanalıq kimi xoş anlar qatır. Düşünəndə ki, soydaşlarımız öz ata-baba yurdlarına, ev-eşiklərinə qayıdır, bu, bizim üçün hər günü bayram edir.

Artıq 2020-ci il də daxil olmaqla altıncı yeni ildir ki, onu könlüaçıq qarşılayırıq. Çünki qəlbimizdən dağ boyda bir düyün açılıb, atılıb. Hicranımız üzərində vüsal qələbə çalıb.Torpaqlarımızın işğalı üzərində azadlıq qələbə çalıb. Soydaşlarımızın məcburi köçkünlüyü üzərində yurda qayıdış qələbə çalıb.

İndi qış fəslidir. Lakin Qarabağ artıq altı ildir ki, bir fəsil yaşayır-bahar fəslini. Sanki baharın gözəlliyindən doymur, onun yerini başqa fəsillərin almasını istəmir. Çünki 30 il idi ki, baharı qovmuşdu, "get, azadlığım gələndə gələrsən",- demişdi. Gülünü-çiçəyini sinəsindən yolub atmışdı. "Gedin, azadlığım gələndə siz də gəlib köksümü bəzəyərsiniz",- demişdi. Allı-güllü yaylığını çıxarıb başına qara bir şal salmışdı. Günəşi qovmuşdu, dumana bürünmüşdü, "mən günəşi bir də azad olunanda qarşılayacam",- demişdi.

Budur, qışdır. Lakin Qarabağda yazdır, bahardır. Minlərlə şəhid və qazimiz bu yurd yerimizə baharı gətirib. Qarabağ allı-güllü donunu geyinib, başından qara şalını açıb, qırmızı bağlayıb. Bu yerlərə artıq günəş doğur və o günəş heç qüruba enmir. Enməyəcək də. Çünki bu günəş əbədiyyən doğub.

İlin son günü... Son 30 ili düşünürsən... Biz nə illər yola salmışıq, nə illər qarşılamışıq... Biz hansı tarixlərlə, hadisələrlə bir 365-i başa vurub, digər 365-i qarşılamışıq. Acısı şirinindən qat-qat çox illəri... Şükürlər olsun ki, artıq o illər tarixin arxivinə yollandı. Artıq qəlbimiz açıq, başımız dikdir.

Bütün bu gözəlliklərin fonunda düşünürsən ki, nə yaxşı ki ötən illər yaşanıb, müstəqil olmuşuq. Nə yaxşı ki ötən illər yaşanıb, qədirbilən olmuşuq. Gəl, 2026, gəl, vərəqlə ömür kitabımızı. Gəl, əl-ələ verək, həmrəy olaq, yeni bir tarix yazmağa başlayaq. Şair demişkən:

Qəlbimizin odundan
Alovlansın hər ocaq.
Biz nə zaman bir olsaq,
O gün bayram olacaq

Əlvida 2025, xoş gəldin 2026! Qədəmlərin uğurlu olsun. Gəl, yeni il, gəl, aç ömür kitabımızın 2026-cı səhifəsini, yaz ora şairin bu misralarını:

Ötür illər, fəsillər,
Günlər dönüb aylanır.
Ömrümüzə bu axşam
Bir gələcək boylanır

***Mətanət Məmmədova***

# Milli Mətbuat 150: ”Konstitusiya və Suverenlik İli” qələmi ilə döyüşənlərin gözü ilə...

150 yaşlı milli mətbuatımızın yetişdirdiyi yüzlərlə mətbuat adamının qələmini qılınca çevirib döyüşdüyü, xələflərinin hətta şəhidliyinə, qaziliyinə şahid olduğu 30 ildən danışmaq istəyirəm. 1990-cı illərin siyasi-iqtisadi çaxnaşma və böhranının dalğalarında itən gəncliyin nümayəndəsi, 30 ilin acılı-şirinli anlarını yaşayanlardan biri kimi... Bunun üçün nə arxivlərə yollanmağa, nə tarix kitablarını vərəqləməyə, nə də hər hansı araşdırmanı aparmağa ehtiyac yoxdur. Çünki hər bir hadisənin içərisində var idik...

Milli mətbuatımız keşməkeşli, lakin əzmkar və tarixi yollarla 1990-cı illərin əvvəllərinə çatanda 115 yaşı vardı və bu yaşda artıq məxsus olduğu dövlətlə birlikdə 4-cü siyasi dövrə daxil olurdu: çarizm, cümhuriyyət, sosializm və yenicə qədəm qoymaqda olduğumuz müstəqillik. Həsən bəy Zərdabi çarizm ilə iradə döyüşünə çıxıb yaratmışdı ”Əkinçi”ni. Özü və ailəsi təhdidlərlə üzləşsə də, hər an həyatları təhlükə qarşısında olsa da, qələmi qılınc ola bilmişdi. Siyasi çağırışlarını ”əkinçilikdən bəhs edəcək”,- deyə çarizmə təqdim etdiyi, lakin əslində bu ad altında yaşama haqqı verdiyi bir məcmu ilə xalqın maarifpərvər övladlarına, onların vasitəsilə də soydaşlarına çatdıra bilmişdi. Bununla da milli mətbuatın əsasını qoymuşdu. 115 il ərzində tarixi bir yol keçə də bilmişdi: cümhuriyyəti görmüşdü, qələmdaşları ilə 70 il sovet imperiyası məngənəsində inləyən Azərbaycanın gizli-aşkar azadlıq və müstəqillik mübarizəçisinə çevrilə də bilmişdi. Və 90-cı illərin əvvəllərində çətin bir dövrə şahidlik etmək də qisməti olmuşdu...

### Bu, başqa dövrlərə bənzəmirdi...

Çünki Azərbaycan müstəqilliyini bərpa etmək üçün maneələrlə dolu bir yola çıxmışdı. Bu yolda torpaq itkisi, namusa, şərəfə, iffətə ləkə olan işğal olacaqdı. Dişi-dırnağı ilə qurduğu evindən, isti ocağından silah burnunda qovulan, 30 il köçkün həyatının hər üzünü görən minlərlə insan olacaqdı. Gözü önündə atası güllələnən, balası şişə keçirilən, qızının ləkələnən namusunu gözləri ilə görən insanlar olacaqdı... Bu yolda nə qanlar, nə qadalar, nə itkilər, nə şəhidlər, nə göz yaşları, nə qara yaylıq analar, nə belibükük atalar, nə atasız uşaqlar, yarsız qızlar, saçının bir tərəfini qara, bir tərəfini ağ hörən, vaxtsız yaşlaşan gözüyaşlı gəlinlər, arzusu Vətən torpağına gömülən gənclər olacaqdı.

Bu yolda 30 illik yurd həsrəti, yalnız yuxularında həyət-bacasında dolaşan insanlar olacaqdı. Həsrətdən qəlbi qocalan, ağlamaqdan gözlərinin işığı sönən, ”yurdum-yurdum”,- deyən, lakin yurdunu görmədən həyatla vidalaşan, qəbri qərib soydaşlarımız olacaqdı.

30 ilin o başında Qarabağ anasının qucağından qoparılacaq, suverenliyimiz, konstitusiya quruluşumuz pozulacaqdı. Yenicə qazandığımız müstəqilliklə qaldırdığımız üçrəngli bayrağın dalğasını Qarabağ və Şərqi Zəngəzur heç görməyəcək, bunun üçün düz bir qərinəyədək gözləməli olacaqdı. 30 ilin o başında Bakı-Naxçıvan qatarlarının qarşısı düşmən erməni tərəfindən kəsiləcək, maşinistlər döyüləcək, güllələbaran edilən, pəncərələri daşlanan vaqonlardakı sərnişinlərin həyatı təhlükə ilə üz-üzə qalacaqdı. Və günlərin bir günü Mehridə-öz əzəli torpağımızda qatar yenə də dayandırılacaq, sərnişinlər o zaman Naxçıvanda yaşayan və




çalışan Ulu Öndər Heydər Əliyevin əzmi ilə vertolyotlarla Naxçıvana daşınacaqdı. Elə həmin gündən bir daha Bakı-Naxçıvan qatarı dəmir yolu üzərində qərbdən-şərqə, şərqdən qərbə hərəkət etməyəcəkdi. Naxçıvan Muxtar Respublikası qonşuluqdan kənar qonşu tərəfindən blokadaya salınacaq, blokadanın ilk onilliyi insanları aclıq, səfalət, təbii qazın, elektrik enerjisinin kəsilməsi ilə yaranan dəhşətlərlə üz-üzə qoyacaqdı. Uşaqlar çörəkdən yana göz yaşı tökəcək, insanlar evlərində soyuqdan donacaq, məktəblər bağlanacaq, xəstələr xəstəxanalarda şəfa tapa bilməyəcək, gəncliyimiz çörək və neft növbələrində keçəcəkdi. Nə məktəb illəri, nə tələbəlik, nə nişan, nə toy-bunların hər biri qurduğumuz xəyallardakından xeyli uzaqda olacaqdı... Və bütün bunları Naxçıvanda bir neçə həftə ərzində gözləri ilə görüb qələmə alan, lakin ədalətsizlik fonunda çalışdığı mətbu orqanda çap etdirə bilməyən və bu səbəbdən vicdan əzabı etirafı ilə Azərbaycana-”Vışka” qəzetinə göndərən ”Oqonyok ” jurnalının icmalçısı Georgi Roynevin ”Nəhayətsiz yol” oçerkində oxuyacaqdıq...

### 30 il həm də qələmi ilə döyüşən ordu yaradacaqdı...

İki müharibə yaşanan 30 il silahı ilə döyüşən, siyasi meydanlarda iradə savaşına çıxanlarla bərabər, həm də qələmini qılınca çevirən jurnalist ordusu yaradacaqdı. Onlar hadisələrin içərisində ən gözəl siyasətçiyə, araşdırmaçıya, təhlilçiyə, tarixçiyə, xəbərçiyə çevriləcəkdi. Hadisələri elə qələmə alacaqdılar ki, onun əsasında yeni dövrün tarixi yazılacaqdı...

O qələmlər 20 Yanvardan- sovet ittifaqının əldən vermək istəmədiyi Azərbaycana gecə ilə göndərdiyi və yüzlərlə insanı qətlə yetirdiyi o müdhiş ordunun vəhşiliyindən yazdı. O qələmlər bir-birinin ardınca işğal olunan torpaqlardan, ocağı sönən, yurdu boş qalan, ölkənin müxtəlif ərazilərinə səpələnən soydaşlarımızdan yazdı. Dünyada analoqu olmayan Xocalı faciəsindən yazdı, 30 ildə bu faciəni dünyaya yaydı, ədalət axtarışına çıxdı. Naxçıvan blokadasından, muxtar diyarın Ulu Öndərin səyi ilə işğaldan yan ötməsindən, insanların yaşamaq uğrunda mübarizəsindən, Naxçıvandan başlanan azadlıq mücadiləsindən yazdı. Vəzifə davası edənlərdən, torpaqları vəzifə kürsüsünə qurban verənlərdən, cəbhədə düşmənin qarşısına ov tüfəngi, bel, dırmıq ilə çıxan zabit və əsgərlərimizin kömək diləyinə səs verməyən hakimiyyətdən yazdı. Bütün bunlara bizim kimi, mətbuatımız da şahid oldu: düz 30 il. Bu 30 il müstəqilliyimizi bərpa etdi, lakin xalqa iki müharibə yaşatdı. Vətəni satanlarla da, Vətəni canından artıq sevənlərlə də tanış etdi bizi.

### Qələm həm də qılınc oldu: döyüşdü, qələbə qazandı, Zəfərdən yazdı...

Haqqı vardı, ana südü kimi halal idi Zəfərdən yazmaq. Çünki birinci və ikinci Vətən müharibəsi arasındakı 30 illik zaman kəsiyində gecə-gündüz mücadilə etmişdi. 90-cı illərin iqtisadiyyatı çökmüş Azərbaycanında aylarla əmək haqqı ala bilməsə də, sonrakı uzun illər boyu aşağı əmək haqqı ilə işləsə də, lakin meydandan çəkilmədi qələm sahibləri. Dövlət, dövlətçilik, konstitusiya quruluşu, suverenlik, müstəqilliyin daimiliyi üçün əzmlə mübarizə apardı. 2020-ci ildə 44 günlük İkinci Vətən müharibəsində xalqın ilhamvericisi, cəbhə ilə xalq arasında informasiya bazası oldu. Qara xəbərləri də oldu, şad xəbərləri də. Lakin müharibənin ”qanunu” deyilmi bunlar?..

Böyük Zəfərin əldə olunmasında 20 il mübarizə aparan Prezident, Ali Baş Komandan, müzəffər sərkərdənin 44 gündə tez-tez ölkə mətbuatına verdiyi müsahibələrdə iştirak etdi, bu müsahibələri dünya mətbuatına təqdim etdi bu ordu. Sözü, xəbəri, reportajı, açıqlamaları, təhlilləri, oçerk, esseləri, fotoları ilə öz ”döyüş” bölgəsində gecəli-gündüzlü çalışdı.

Ali Baş Komandanın qələbə müjdələrini xalqa çatdırdı. İşğaldan azad edilən torpaqlara yollandı, üçrəngli bayrağımızla qovuşan yurdların sevincini qələmə aldı, daşı daş üstündə qalmayan əzəli torpaqlarımıza ermənilərin tutduğu divanı əvvəlki sözünü təsdiqləmək üçün bir daha dünyaya təqdim etdi.

Həm vətəndaş, həm yurddaş, həm jurnalist kimi qürur duydu bu ordu. Çünki 44 günlük müharibə və 2023-cü ilin 20 sentyabrında birgünlük antiterror əməliyyatı ilə Qarabağ və Şərqi Zəngəzur düşməndən azad edildi. Bununla da Azərbaycanın konstitusiya quruluşu və suverenliyi bərpa olundu. 20 sentyabr təqvimimizdə Dövlət Suverenliyi Günü kimi yer aldı. Hər il həmin gün yenə qələm yazacaq, nəsillərə işğalı və Zəfəri xatırlatmaqla, vətənpərvər gənclərin yetişməsində böyük rol oynayacaq. Budur, 2025-ci il ”Konstitusiya və Suverenlik İli” kimi tariximizin səhifəsinə qürurla həkk olur: 90-cı illərin Azərbaycanı ilə bugünkü Azərbaycanın, o hakimiyyətlə, bugünkünün, o ordu ilə bu ordunun, Birinci Vətən müharibəsi ilə ikincinin, işğal ilə Zəfərin şahidi olmuş, üstəlik də qələmi ilə bir qərinəyədək dövrün salnaməsini yaradanlar daha çox qürur duyur.

Naxçıvanın da yolu açılacaq. Əslində dövlət başçısı Naxçıvanla bağlı 9-cu bəndi 10 noyabr 2020-ci ildə imzalanan üçtərəfli Bəyannaməyə iradəsi gücü ilə saldırmışdı. Lakin Ermənistan nə vaxt öhdəliyinə, sözünə sahib olub ki?..

Dövlətimizin başçısı nəyi nə zaman edəcəyini yaxşı bilir və artıq Zəngəzur dəhlizi yaxın gələcəkdə şərqlə qərbi birləşdirən nəhəng magistrala çevriləcək. 270 il sonra Böyük Zəfərlə, müzəffər ordumuza səriştəli sərkərdəliyi ilə Azərbaycanın ərazi bütövlüyünü təmin edən Lider Zəngəzur dəhlizi məsələsini ABŞ Prezidenti səviyyəsində həll etməyi də bacardı. Qələmi ilə döyüşənlərin bu dəhlizin açılmasında da böyük zəhməti var. Odur ki, gün o gün olsun ki, Zəngəzur dəhlizi ilə qərbdən şərqə, şərqdən qərbə səyahətlərdən xəbərlər, reportajlar yazaq, fotolar paylaşaq. 150 yaşlı sələfimizin xələflərinə, bax, bu, çox yaraşır.

***Mətanət Məmmədova***



**Elçin Bayramlı**

## Yeni il kimin bayramıdır?

Hər Yeni il bayramı yaxınlaşanda cəmiyyətdə, mətbuatda, sosial şəbəkələrdə bəzi şəxslər tərəfindən bu bayramın bizə aid olmadığı haqda cəfəngiyyatlar baş alıb gedir. Radikal millətçilər və dinçilər başlayırlar ki, bəs bu xristianlıq bayramıdır, bizə yaddır, niyə onu qeyd etməliyik filan. Çoxları belə cavab verir ki, il dəyişir, bütün dünyada qeyd olunur, biz də qeyd etməliyik. Təbii ki, haqlıdırlar. İlin dəyişməsi bayram kimi qeyd oluna bilər və burda milli, qeyri-milli nəsə axtarmaq axmaqlıq olardı.

Lakin Qış bayramının, Şaxta babanın, Yolka bəzəmək ənənəsinin bizim çox qədim köklərimizdən gəldiyini bilsəydilər, cavabları daha sanballı olardı deyə bu kiçik yazımda məsələyə bir az aydınlıq gətirməyə çalışacağam.

Qış bayramı haqda qədim hind-çin, türk, misir mədəniyyətlərində məlumatlar var. Şaxta Baba və Yolka ilə bağlı ən qədim məlumatlar 5 min il tarixi olan Şumer mətnlərində var. Eyni dövrə aid hindlilərə məxsus müqəddəs dini-fəlsəfi biliklər toplusu olan Vedalarda da Qış bayramı haqda məlumatlar var.

Bu haqda tarixçilərin, o cümlədən istedadlı qələm dostumuz, araşdırmaçı jurnalist Azərbaycan Yazıçılar Birliyinin və Rusiya Jurnalistlər Birliyinin üzvü Əliş Əvəzin maraqlı tədqiqatları var. Araşdırmaçı qədim mənbələrə dayanaraq, yazır ki, qədim türklərin ən böyük bayramı dekabrın 25-nə düşən ”Açı” (”acı”) suyu” bayramı idi. Bu gün içərisinə açı (xaç) salınmış su ilə yuyunub təmizlənmək çox vacib sayılırdı ki, bu da Ulu Tanrıya (Tanrı xana) biətin ifadəsi idi. (Qeyd etmək lazımdır ki, bərabərtərəfli xaç qədim türk, şumer, misir və hind mədəniyyətlərində əbədiyyəti simvolizə edən müqəddəs simvol idi- E.B).

Həmin gün hər kəs evə müqəddəs sayılan, Tanrının əbədilik rəmzi olan şam və ya küknar budağı gətirməli idi. Həmişəyaşıl olması səbəbilə Yolkanın dirilik, əbədilik simvolu kimi müqəddəsləşdirilməsi tarixi isə qədim türklərdə hələ Tanrıçılıq dinindən təxminən 3 min il əvvələ gedib çıxır. Bu ağacın konus formalı olmasından dolayı onu bəzəmək və başına ulduz qoymaq Tanrıya aparan yolun bəzənməsini simvolika edir və Tanrıya qovuşmaq istəyinin nəticəsidir.

Bu ənənələr Tanrının daha qədim adı olan Yersu ilə bağlıdır. Yolkanın evə gətirilməsi Yersunun ərməğanı hesab edilirdi. İnama görə, Tanrı Yersunun iqamətgahı yerin təkində və mərkəzində yerləşib. Burada, Dünya Ağacının rəmzi olan nəhəng, müqəddəs yolka (şam) ağacı bitib. Bu ağacın altında onun hamisi sayılan, əyninə uzun xalat geymiş ağ saqqallı bir qoca əyləşib. Bu, Ülgən (Ölgən) Babadır.

Ülgən Baba çox xeyirxah qocadır, ildə bir dəfə qış vaxtı yerin üstünə çıxıb adamlara qonaq gəlir, böyük torbasında uşaqlara hədiyyələr və Yolka gətirir. Uşaqlar və böyüklər həmin yolkanın ətrafında dövrə vuraraq səhərə qədər nəğmə oxuyub şənlənirlər. Yolka o dərəcədə müqəddəs sayılırdı ki, hətta tanrıçılıq dövründə ölən adamların qəbirlərini şam budaqcıqları ilə döşəyirdilər. İndi də bizim qəbiristanlıqlar şam ağacları ilə doludur.

Şam sözünün qədim dilimizdə Tanrının adlarından biri olması da çox şeydən xəbər verir. Azərbaycanda Şamaxı, Şə(a)mkir, Şamlıq kimi toponimlərin də Tanrının şərəfinə verildiyi aydın olur. Şaman sözünün etimologiyasının kökündə də bu dayanır.

Yazımızdan aydın olduğu kimi, xristianlıqdan azı 3 min əvvələ aid olan bu bayram İsa peyğəmbərin doğuluşu və ya təqvim ilinin başlaması ilə bağlı deyil, konkret olaraq qədim mifoloji dini görüşlərimizə əsaslanır. Miladi Yeni ilini, Qış bayramını Şaxta (Ülgən) Baba və Yolka (Şam) atributları ilə müxtəlif inanclı əksər şərq xalqlarının geniş qeyd etməsi böyük tarixi təbəddülatlar yaşamış qədim şərq sivilizasiyasının gen yaddaşından qaynaqlanır. Bəziləri bəşəriyyətin ən qədim bayramı olan Novruz bayramının da əleyhinə çıxırlar. Bu zəngin bayram onu qeyd edən xalqların qədim və yüksək mədəniyyətini göstərən əsas faktlardandır.

Unudulmuş bayramlarımızdan biri olan Xvarna yeni eradan bir neçə min əvvəldən Qafqazdan Çinədək ərazilərdə yaşayan xalqlar tərəfindən keçirilərmiş. Qədim insanlar Novruzda olduğu kimi odun vasitəsilə Tanrıya Onun nemətlərindən qansız qurbanlar verərək minnətdarlığını ifadə edərlərmiş. İndiki təqvimlə bu bayram oktyabrın 8-ə düşür. Xülasə sözüm ondadır ki, qədimlərdə bizim olan sonradan başqalarına təhvil verib imtina etdiyimiz mədəniyyət elementlərini onlardan geri almaq əvəzinə öz kökümüzdən çıxarıb yenidən sahiblənmək lazımdır.

**Milli və bəşəri bayramınız mübarək!**

# Dünyanı və bizi 2026-da nələr gözləyir?

*Ekoloji vəziyyət deyir ki, pis günlər geridə qaldı, qarşıda bizi daha da pis günlər gözləyir...*

*Yazı Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyi ilə "ictimai və dövlət maraqlarının müdafiəsi" istiqaməti çərçivəsində hazırlanıb.*



İnsan faktorunun təsiri ilə ildən ilə daha da pisləşən iqlim dəyişikliyi 2025-ci ildə rekord həddə çatan üç ən isti ildən biri kimi yadda qaldı. Həmçinin, sənayeləşmədən əvvəlki dövrlərdən bəri üç illik temperatur ortalaması ilk dəfə olaraq 2015-ci il Paris Sazişində istiləşməni 1,5 dərəcədən çox məhdudlaşdırmamaq barədə müəyyən edilmiş həddi aşıb. Mütəxəssislər deyirlər ki, Yer kürəsini bu həddən aşağıda saxlamaq ekosistemi xilas edə və dünyada fəlakətli ekoloji məhvin qarşısını ala bilər. Ötən həftə Avropada dərc edilən "World Weather Attribution" tədqiqatçılarının təhlili, dünyanın hər yerində insanların istiləşən planetin yaratdığı təhlükəli ekstremal vəziyyətlərdən əziyyət çəkdiyini qeyd edir. Tədqiqatçılar planeti istiləşdirən istixana qazlarını atmosferə göndərən səbəbin neft, qaz və kömür kimi qazıntı yanacaqlarının olduğunu qeyd etdilər.

"World Weather Attribution"ın (WWA) həmtəsisçisi və London İmperial Kollecinin iqlim üzrə alimi Friederike Otto Associated Press-ə bildirib ki, əgər biz qalıq yanacaqlarının yandırılmasını tezliklə dayandırmasaq, istiləşmənin qarşısını almaq mümkün olmayacaq: "Bu il müşahidə etdiyimiz istilik dalğaları bu gün iqlimimizdə olduqca çox baş verən hadisələrdir, insanların yaratdığı iqlim dəyişikliyi olmasaydı onların bir çoxu demək olar ki, baş verməzdi."

Ekstremal təbiət hadisələri hər il minlərlə insanın ölümünə və milyardlarla dollar ziyana səbəb olur. WWA alimləri 2025-ci ildə 157 ekstremal təbiət hadisəsini ən ağır ekoloji hal kimi təsnif ediblər. Buraya WWA-nın 2025-ci ildə dünyanın ən ölümcül ekstremal təbiət hadisələri olduğunu bildirdiyi təhlükəli istilik dalğaları da daxildir. Tədqiqatçılar 2025-ci ildə araşdırdıqları bəzi istilik dalğalarının iqlim dəyişikliyi səbəbindən on il əvvəlkindən 10 dəfə çox olduğunu bildiriblər.

Bu il noyabr ayında Braziliyada keçirilən Birləşmiş Millətlər Təşkilatının iqlim danışıqları qalıq yanacaqlardan imtina etmək üçün heç bir açıq plan olmadan başa çatdı və ölkələrin iqlim dəyişikliyinə uyğunlaşmasına kömək etmək üçün daha çox kapital vəd edilsə də, bunun üçün daha çox vaxt lazım olacaq. Danışıqlar zamanı rəsmilər, alimlər və analitiklər Yer kürəsinin istiləşməsinin 1,5 dərəcə Selsi dərəcəni keçəcəyini etiraf etdilər.

Ümumi olaraq nəzər salsaq, fəlakətin qaçınılmaz olduğunu anlayan dünya ölkələri öz imkanları hesabına qənaət etmənin və ekoloji məhvin qarşısını almağın yollarını axtarırlar. Çin günəş və külək enerjisi də daxil olmaqla bərpa olunan enerji mənbələrindən sürətlə istifadə edir, eyni zamanda kömürə investisiya qoymağa davam edir. Getdikcə daha çox baş verən ekstremal hava şəraiti Avropada iqlim dəyişikliyi ilə bağlı tədbirlərə çağırışlar yaratsa da, bəzi ölkələr bunun iqtisadi artımı məhdudlaşdırdığını deyirlər. Bu arada, ABŞ-da Tramp administrasiyası ölkəni təmiz enerji siyasətindən uzaqlaşdıraraq kömür, neft və qazı dəstəkləyən tədbirlərə üstünlük verib. WWA təmsilçisi Otto deyir ki, bir çox ölkə fosil yanacaq sənayesindən öz maraqları üçün istifadə edərək bunu siyasi bir marağa çevirir".

2025-ci ilə boylananda məlum olur ki, əslində çox da xoş olmayan bir ili geridə qoyduq. Ötən payız Cənub-Şərqi Asiyada baş verən siklonlar və daşqınlar 1750-dən çox insanın ölümünə və 25 milyard dollardan (19 milyard funt sterlinq) çox ziyana səbəb oldu, Kaliforniyada baş verən meşə yanğınlarında ölənlərin sayı isə 400 nəfəri keçdi, ziyan isə 60 milyard dollar oldu. Çində minlərlə insanın evindən didərgin düşdüyü dağıdıcı daşqınlar 30 insanın ölümünə, təxminən 12 milyard dollar ziyana səbəb oldu.

"Christian Aid" xeyriyyə təşkilatının illik hesabatına görə, 2025-ci ilin ən ağır 10 təbii fəlakətinə görə sığorta itkilərinin məbləği 120 milyard dollardan çox olub. London İmperial Kollecinin atmosfer fizikası üzrə fəxri professoru Joanna Haigh, insan fəaliyyətinin nəticəsində yaranan iqlim böhranı səbəbindən zərərli hadisələrin tez-tez və intensiv şəkildə artmağa davam edəcəyini deyir: "Dünya artıq necə həll edəcəyimizi bildiyimiz bir böhran üçün getdikcə daha da çox qurban verir. Bu fəlakətlər "təbii" deyil, onlar davamlı qazıntıların aparılması, qalıq yanacaq istifadəsinin genişlənməsinin nəticəsidir".

Qeyd edilən hesabatda hər biri 1 milyard dollardan az ziyanla nəticələnən daha 10 böyük ekstremal təbiət hadisəsi də araşdırılıb. Filippində baş verən bir sıra tufan və qasırğalar 1,4 milyondan çox insanın evindən didərgin düşməsinə və 5 milyard dollar ziyana səbəb olub. İl ərzində baş verən fəlakətlər dünyanın bütün bölgələrinə təsir göstərib. İrandakı quraqlıq Tehranın 10 milyon sakinini təxliyə təhlükəsi ilə üz-üzə qoydu. Aprel ayında Konqo Demokratik Respublikasında daşqınlar baş verdi, daha sonra may ayında Nigeriyada 700 nəfər öldü. Hindistan və Pakistandakı daşqınlar 1860-dan çox insanın ölümünə səbəb oldu, təxminən 6 milyard dollar zərər vurdu və təkcə Pakistanda 7 milyondan çox insana təsir etdi. İnkişaf etmiş ölkələrdə rekord sayda yanğın baş verdi, Kanadada quraqlıq baş verdi və Şotlandiyada rekord istilər oldu.

Noyabr ayında keçirilən BMT-nin iqlim sammiti COP30-da varlı ölkələr yoxsul ölkələrin ekstremal hava şəraitinin təsirlərinə uyğunlaşmasına kömək etmək üçün mövcud maliyyə vəsaitinin üçqat artırılması barədə razılığa gəldilər. Lakin 2035-ci ilə qədər 120 milyard dollara çatacağı gözlənilən üçqat artım, inkişaf etməkdə olan ölkələri maliyyələşdirmək üçün yetərli olmayacaq. "Christian Aid"in baş icraçı direktoru Patrik Vatt əlavə edib ki, ekstremal hava şəraitindən dəyən ziyana görə ödəniş dünya istixana qazı tullantılarını azaldana və qazıntı yanacaqlarını tədricən dayandırana qədər artmağa davam edəcək. O bildirir ki, baş verən fəlakətlər, əgər dünya qazıntı yanacaqlarından istifadəni azaltmaq üçün keçidi sürətləndirməsə, qarşıda bizi nələrin gözlədiyi barədə bir xəbərdarlıqdır.

Qeyd edək ki, COP30-da, ölkələrin qazıntı yanacaqlarından tədricən imtina etməsi üçün yol xəritələri üzərində işə başlamaq cəhdi bütün ölkələr üçün məcburi bir vəzifə deyil, könüllü bir təşəbbüs statusuna endirildi.

**Lalə Mehralı**

# Dr.Bəxtiyar Musayev: "Mərkəzi Gömrük Hospitalı davamlı inkişaf yolu keçərək, ölkənin qabaqcıl tibb müəssisələrindən birinə çevrilib"









Yeni ilə saylı saatlar qalıb. Qarşıdan Yeni - 2026-cı il gəlir. Biz də Yeni il qabağı Dövlət Gömrük Komitəsi Tibbi Xidmət İdarəsinin Mərkəzi Hospitalının rəisi-Baş həkim, tibb xidməti polkovniki, tibb elmləri doktoru Bəxtiyar Musayevlə söhbətləşdik, yola saldığımız ilin uğurlarını xatırladıq, gələn ilə planlar barədə danışdıq. Baş həkim Dövlət Gömrük Komitəsinin Tibbi Xidmət İdarəsinin dəstəyi ilə Hospitalın 2025-ci ildə əldə etdiyi nailiyyətlər, tətbiq edilən mürəkkəb cərrahi əməliyyatlar, həyata keçirilən tədbirlər və sosial aksiyalar barədə ətraflı məlumat verdi. Müsahibəni hörmətli izləyicilərimizə təqdim edirik.

-Bəxtiyar həkim, 2025-ci il Sizin üçün, rəhbərlik etdiyiniz Mərkəzi Gömrük Hospitalı üçün necə il oldu, hansı əlamətdar hadisələrlə yadda qaldı?

-Mən deyərdim ki, 2025-ci il təkcə Mərkəzi Gömrük Hospotalı üçün deyil, ümumiyyətlə respublikamız üçün uğurlu il oldu. İlk növbədə, 2025-ci il Azərbaycan tarixinə "Konstitusiya və suverenlik ili" kimi düşdü. 2025-ci ilin "Konstitusiya və Suverenlik ili" elan olunması Azərbaycan dövlətçiliyinin əsaslarını daha dərindən dərk etmək və gələcək nəsillərə ötürmək üçün əhəmiyyətli bir addım oldu. Bu il həm də müstəqil və müasir Azərbaycanımızın tarixinə unudulmaz gün kimi daxil olan Zəfər bayramının 5 illiyini qeyd etdik. Düz 5 il əvvəl Azərbaycan xalqının yazdığı Zəfər dastanı yaddaşlarda hünər, qeyrət, igidlik, ədalət nümunəsi kimi qaldı.

Azərbaycanın son illərdə əldə etdiyi ən mühüm siyasi və diplomatik uğurlardan biri də 2025-ci ilin Vaşinqton razılaşması oldu. ABŞ Prezidenti Donald Trampın iştirakı və şahidliyi ilə Azərbaycan və Ermənistan arasında sülh sazişinin paraflanması Cənubi Qafqazda uzunmüddətli sülh gündəliyinin formalaşmasına təkan verdi. Hazırda işğaldan azad olan ərazilərimizdə böyük layihələrin həyata keçirilməsi ilə yenidənqurma və bərpa işləri geniş vüsət alıb. Böyük Qayıdış davam edir, köç karvanları işğaldan azad edilmiş torpaqlarımıza üz tutur, insanlar illər boyu həsrətində olduqları doğma yurdlarına qayıdır. Cəsarətlə deyə bilərəm ki, 2025-ci il Mərkəzi Gömrük Hospitalı üçün də uğurlu oldu.

2008-ci ildə möhtərəm prezidentimiz cənab İlham Əliyevin xeyir-duası ilə fəaliyyətə başlayan Mərkəzi Gömrük Hospitalı dekabrın 25-də 17 illiyini qeyd etdi. 2025-ci il Hospitalımız çox gərgin iş rejimi ilə seçildi. Bu illər ərzində Mərkəzi Gömrük Hospitalı davamlı inkişaf yolu keçərək, maddi-texniki bazasını və kadr potensialını gücləndirərək ölkənin qabaqcıl tibb müəssisələrindən birinə çevrildi. Bu il Hospitalımız bir çox yeniliklərə imza atdı. İlk növbədə, nəinki ölkəmizdə, Cənubi Qafqazda ilk dəfə olaraq meyit donordan qaraciyər və böyrək transplantasiyası əməliyyatları uğurla həyata keçirilmişdir.

SON SƏHİFƏ
SƏS
31 dekabr
2025-ci il

# "SƏS" qəzetinə abunə kampaniyası davam edir!



*«SƏS» QƏZETİNƏ ABUNƏ OLMAQ İSTƏYƏNLƏR AŞAĞIDAKI YAYIM ŞİRKƏTLƏRİ İLƏ ƏLAQƏ SAXLAYA BİLƏRLƏR*

1. Azərpoçt Poçtdaşıma Mərkəzi – 0125984955, 0552004544
2. Mətbuat Yayım MMC – 0124411991, 0124404694
3. Səma Mətbuat Yayım – 0125940252, 0503336969
4. Pressİnform MMC – 0125115191, 0504560835, 0553156002
5. Qaya Mətbuat yayım – 0125667780, 0502352343
6. Ziya LTD – 0124977696, 0503067744
7. Bakmətbuat MMC 0502644010

1 nüsxə 1 aylığı 8 AZN
6 aylıq 48 AZN
1 illik 96 AZN

ABUNƏÇİLƏRİMİZİN XİDMƏTİNDƏYİK
Müraciət, şikayət, yazı, təbrik və başsağlıqlarınızı dərc etməyə hazırıq!

# Gələn il qızılın qiymətində nə dəyişiklik olacaq?

*İqtisadçı ekspert mühüm məqamlardan danışdı*



"Analitik qiymətləndirmələrin əksəriyyətinə əsasən, növbəti ildə qızıl bazarında qiymətlərin artım istiqamətində hərəkət etməsi ehtimalı üstünlük təşkil edir". Bu sözləri SİA-ya açıqlamasında Liberal İqtisadçılar Mərkəzinin sədri Akif Nəsirli bildirib.

Onun sözlərinə görə, bu gözləntilər bir sıra fundamental amillərlə izah olunur. İlk növbədə, mərkəzi bankların qızıl ehtiyatlarını ardıcıl şəkildə artırması qızılın strateji aktiv kimi əhəmiyyətini gücləndirir: "Eyni zamanda qlobal iqtisadiyyatda müşahidə olunan qeyri-müəyyənliklər, maliyyə bazarlarında risklərin artması, aparıcı iqtisadiyyatlarda mümkün faiz endirimləri və davam edən geosiyasi gərginliklər qızıla olan tələbi stimullaşdıran əsas faktorlar sırasında yer alır. Belə şəraitdə qızıl ənənəvi olaraq investorlar tərəfindən "təhlükəsiz sığınacaq" aktiv kimi qəbul olunur ki, bu da qiymətlərin yüksəlməsinə əlavə təkan verir.

Beynəlxalq banklar və iri investisiya şirkətləri tərəfindən hazırlanan proqnozlarda qızılın qiymətinin mövcud səviyyələrdən daha yüksək həddə çatacağı vurğulanır. Bir sıra ssenarilərdə qızılın bir unsiyasının 4 000-5 000 ABŞ dolları diapazonunda formalaşması mümkün hesab edilir. Daha ehtiyatlı yanaşmalar isə qiymət artımının nisbətən məhdud olacağını və bazarın mərhələli yüksəliş nümayiş etdirəcəyini irəli sürür. Bununla yanaşı, qısamüddətli dövrdə qiymət dalğalanmalarının baş verməsi istisna edilmir. Xüsusilə ABŞ dollarının möhkəmlənməsi və ya pul-kredit siyasətinin sərtləşdirilməsi kimi amillər qızıl qiymətlərinə müvəqqəti təzyiq göstərə bilər. Elmi-analitik yanaşmaya görə, mövcud risklər və makroiqtisadi tendensiyalar fonunda qızıl orta və uzunmüddətli perspektivdə dəyərini qorumaqla yanaşı, artım potensialına malik aktiv kimi qalacaq. Bu baxımdan qızılın gələn il digər bir çox maliyyə alətləri ilə müqayisədə daha dayanıqlı və cəlbedici investisiya vasitəsi olacağı barədə konsensus mövcuddur".

***Günay Hacıyeva***

## ELAN

ARPİİ-nin " Aqrokompleks" müəssisəsi tərəfindən Muradov İlqar Məmmədsadıq oğluna verilmiş 35 № li xidməti vəsiqə itdiyi üçün etibarsız sayılır.

# Bu gün Bakıda atəşfəşanlıq olacaq



Bu gün Bakıda 31 Dekabr - Dünya Azərbaycanlılarının Həmrəylik Günü və Yeni il münasibətilə atəşfəşanlıq təşkil ediləcək. SİA-nın əldə etdiyi məlumata görə, atəşfəşanlıq Dənizkənarı Milli Parkda baş tutacaq. Şəhər sakinləri və qonaqlar atəşfəşanlığı dekabr 31-i saat 00:00-da sözügedən ərazidən seyr edə bilərlər.

# Narkotikaya qarşı mübarizəyə həsr olunan dəyirmi masa keçirilib

**Dekabrın 29-da Ümumdünya Gömrük Təşkilatının Bakı şəhərindəki Potensialın Gücləndirilməsi üzrə Avropa Regional Ofisində "Narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının qanunsuz dövriyyəsinə qarşı mübarizənin hüquqi, tibbi və sosial aspektləri" mövzusunda dəyirmi masa təşkil edilib.**





Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsinin Tibbi Xidmət İdarəsinin və Ümumdünya Gömrük Təşkilatının Potensialın Gücləndirilməsi üzrə Avropa Regional Ofisinin birgə təşkilatçılığı ilə reallaşan tədbirdə Dövlət Gömrük Komitəsinin sədr müavini, gömrük xidməti general-mayoru Güloğlan Muradlı, Dövlət Gömrük Komitəsi Tibbi Xidmət İdarəsinin rəisi, tibb xidməti general-mayoru Ceyhun Məmmədov, Milli Məclisin Əmək və sosial siyasət komitəsinin sədri Musa Quliyev, Milli Məclisin Ailə, qadın və uşaq məsələləri komitəsinin sədri Hicran Hüseynova, Səhiyyə nazirinin müavini Rasim İsmayılov, Gənclər və İdman nazirinin müavini İndira Hacıyeva, Qida Təhlükəsizliyi Agentliyinin sədr müavini Zəkiyyə Mustafayeva, Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi sədrinin müavini Sədaqət Qəhrəmanova və digər qurumların nümayəndələri iştirak edib.

Çıxış edənlər narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının qanunsuz dövriyyəsinə qarşı aparılan mübarizə tədbirlərindən bəhs edib. Narkomaniyanın ümumbəşəri bəla-ölkə, eləcə də milli genofondumuz üçün ən böyük təhdidlərdən biri olduğunu diqqətə çatdırıblar. Bildirilib ki, Prezident İlham Əliyevin Sərəncamı ilə "Narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının qanunsuz dövriyyəsinə və narkomanlığa qarşı mübarizəyə dair 2025-2030-cu illər üçün Dövlət Proqramı" çərçivəsində bu mövzu ölkəmizdə dövlət siyasətinin prioritet istiqamətlərindən biri kimi müəyyənləşib. Eyni zamanda narkotiklərlə mübarizə sahəsində həyata keçirilən fəaliyyətlər, bu istiqamətdə qurumlararası birgə əməkdaşlığın əhəmiyyəti diqqətə çatdırılıb.

Daha sonra digər dövlət qurumlarının nümayəndələrinin də mövzu ilə əlaqəli məruzələri dinlənilib. "Yeni növ narkotik və psixotrop maddələrdən sui-istifadə: müasir dövrün aktual problemi və onun qlobal təhlükəsi", "Dövlət sərhədindən buraxılış məntəqələrində narkotiklərin qaçaqmalçılığı ilə mübarizə istiqamətində əldə edilmiş nailiyyətlər", "Narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının qanunsuz dövriyyəsi ilə mübarizə sahəsində Respublika Daxili İşlər orqanlarının təcrübəsi", "Ölkəmizdə narkotik vasitələrin və psixotrop maddələrin istifadəsinin epidemioloji vəziyyət və onun xüsusiyyətləri" və digər mövzularda təqdimatlar nümayiş etdirilib. Tədbirin sonunda mövzularla bağlı müzakirələr aparılıb.

*Baş redaktor:*
**Bəhruz Quliyev**

Ünvanımız:
Bakı şəhəri,
Üzeyir Hacıbəyli
küçəsi, 66.
Şəhadətnamə:№ 022492
http://www.ses-news.az
http://www.sesqazeti.az
E-mail: ses@sia.az
"ƏLİNCƏ" AZƏRBAYCAN XEYRİYYƏ CƏMİYYƏTİNİN ORQANI.
QƏZET 1991-Cİ İL YANVARIN 11-DƏN ÇIXIR
Tel: 598-33-90
Faks: 493-11-62

Redaksiyanın mövqeyi ilə müəllifin mövqeyi üst-üstə düşməyə bilər.

Qəzet bazar və bazar ertəsindən başqa hər gün nəşr olunur

Tiraj: 3000